QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 036 (5508) 23 fevral 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. Qiyməti 40 qəpik

## Prezident İlham Əliyev Milli Məclisin deputatı Fəttah Heydərova "İstiqlal" ordeni təqdim edib



Səh 2

Mehriban xanım Əliyevanın gördüyü işlər humanizm prinsiplərindən qaynaqlanır



3

Əli Əhmədov ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun nümayəndə heyətini qəbul edib



4

Siyavuş Novruzov: "Mehriban xanım Əliyeva cənab Prezident İlham Əliyevə bir nömrəli dayaqdır"



4

"Xocalı şahidləri danışır" kitabının təqdimatı olub



5

Azərbaycan-Rusiya dövlət sərhədində ilk sərhəd nişanının quraşdırılması münasibətilə təntənəli mərasim keçirilib



6

MSK: Seçkiqabağı təşviqat üçün ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq KİV-lərin adları açıqlanıb



6

7

Piter Teys: Naxçıvan Avropanın ən gözəl yerlərindən birinə çevrilib



8

"Ermənistan dünya ictimaiyyətini çaşdırmaq əvəzinə beynəlxalq öhdəliklərini yerinə yetirməlidir"



12

BAXCP rəsmisi: "Seçki mühiti üçün hər cür şərait var"



# Prezident İlham Əliyev Milli Məclisin deputatı Fəttah Heydərova "İstiqlal" ordeni təqdim edib





**_Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərova "İstiqlal" ordenini təqdim edib._**

**Prezident İlham Əliyev:**

- Hörmətli Fəttah müəllim. Sizi qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı və uğurlar arzulayıram.

Siz uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayırsınız. İyirmi ildən çoxdur ki, Milli Məclisin deputatı kimi ölkəmizin inkişafına böyük töhfə verirsiniz. Ondan əvvəl - 1990-cı illərin əvvəllərində Naxçıvan Ali Sovetinin, sonra Ali Məclisinin deputatı kimi ulu öndər Heydər Əliyevin rəhbərliyi altında işləmisiniz. Hazırda Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri kimi çox fəal iş aparırsınız. Azərbaycan dövləti sizin xidmətlərinizi yüksək qiymətləndirib. Siz 2008-ci və 2013-cü illərdə "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif olunmusunuz.

Bu gün yubileyiniz ərəfəsində mən sizi Azərbaycan dövlətinin yüksək mükafatı olan "İstiqlal" ordeni ilə təltif etmişəm və bu yüksək ordeni sizə təqdim edirəm.

x x x

Dövlətimizin başçısı İlham Əliyev "İstiqlal" ordenini Fəttah Heydərova təqdim etdi.

x x x

**Fəttah Heydərov:**

-Hörmətli cənab Prezident, çox sağ olun.

Məni bu yüksək mükafatla təltif etdiyiniz, mənə çox yüksək qiymət verdiyiniz üçün Sizə səmimi təşəkkürlərimi bildirirəm. Bu mükafat mənə həyatımın ən xoş anlarından birində təqdim olunur. Siz Azərbaycanı Yer kürəsinin demək olar ki, bütün nöqtələrində tanınan bir dövlətə çevirmisiniz. Hər bir hadisə, istər cəmiyyət həyatında, istər dövlət həyatında möhkəm əsaslara söykənəndə, möhkəm bünövrə üzərində qurulanda o əzəmətli olur, əbədi olur, həmişəlik olur. Ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın hansı səviyyədən hansı səviyyəyə gəldiyinin canlı şahidi olmuşam. Elə həmin dövrdə Azərbaycan demək olar ki, ittifaqın 15 respublikası arasında ən axırıncı yerdən ən qabaqcıl yerə gəlib çatdı. Ulu Öndər 300 milyonluq bir məmləkətin ən yuxarı eşelonunda rəhbərliyə dəvət olundu, bir şəxsiyyət kimi dünyada tanındı. Ulu Öndərdə yüksək humanizm, sülhə, əmin-amanlığa, insanların xoşbəxt yaşamasına gözəl münasibət var idi və arzuları da ondan ibarət idi. Amma hər cür insanlar var, bədxahlar var. Nəinki öz xalqını, öz millətini, öz torpağını istəməyən insanlar, hətta ümumbəşəri ziyankarlar var ki, bax, həmin dövrdə peyda oldular, Ulu Öndər rəhbərlikdən kənarlaşdırıldı və Azərbaycanın fəlakətli günləri həmin vaxt başladı. Bu düşmənçilik prosesində Azərbaycan torpaqlarının beşdəbirini itirdi, 1 milyon qaçqını, köçkünü yarandı, 20 min Azərbaycan insanı şəhid oldu. Səbəb bir idi - Ulu Öndər xalqımızın başı üzərində olmadı, onu kənarlaşdırmışdılar. Amma Allah böyükdür və Ulu Öndər o zaman Naxçıvana gəldi. Naxçıvan da təhlükə qarşısında idi. Biz o zaman bunu hiss edirdik və görürdük, faktlar göstərirdi, Naxçıvanın hər tərəfdən blokada şəraitində olması, insanların ərzaqdan, enerjidən və sairdən korluq çəkməsi... Ulu Öndərin Naxçıvanda olması Naxçıvanı xilas etdi. Ulu Öndərin Azərbaycan xalqının ona olan böyük inamı nəticəsində ikinci dəfə ali hakimiyyətə qayıtması Azərbaycanımızı xilas etdi.

Bugünkü Azərbaycan demək olar ki, Ulu Öndərin yaradıcılıq məhsuludur, şah əsəridir. Bu şah əsəri o yazdı və onun əbədiliyi üçün bir yol qoydu. Bu, təkcə mənim deyil, Azərbaycanı, xalqını, millətini, torpağını, insanlığı qiymətləndirən yaşlı nəslin fikridir ki, Ulu Öndərin yolunu Siz davam etdirirsiniz. Biz həmişə fəxr edirik, ürəyimiz həmişə fərəh hissi ilə dolur ki, Siz mərdanəliklə, təmkinlə, biliklə, bacarıqla saatlarınızı, dəqiqələrinizi əsirgəmədən dövlətimizin siyasi, iqtisadi, mənəvi, mədəni sahələrdə inkişafını təmin etməklə yanaşı, Azərbaycanımızı bu bəd qüvvələrdən qoruyub saxladınız. Sizdə olan bu mətanət, Sizdə olan cəsarət, Sizdə torpağa, insanlara, Azərbaycan insanına olan məhəbbət məhz Ulu Öndərdən qalan yadigardır, onun yolunu uğurla davam etdirməyinizdir. Buna görə də mən Allahdan Sizə möhkəm cansağlığı arzu edirəm. Allah sizi qorusun. Sizin qorunmağınız Azərbaycan xalqının qorunmağıdır, müstəqil Azərbaycanımızın qorunmağıdır. Sizin qorunmağınız sabahımızın, bizim böyüməkdə, artmaqda olan gəncliyimizin qorunmağı deməkdir. Mən Sizə minnətdarlığımı bildirirəm ki, mənim bu kiçik zəhmətimi çox böyük mükafatlarla qiymətləndirmisiniz və bu gün də yenə o qiyməti verdiniz. Çox sağ olun, təşəkkür edirəm. Ulu Öndərimizin yolunda göstərdiyiniz bu fədakar əməyiniz qoy həmişə davam etsin!

Bir məsələni də xüsusilə qeyd etmək istəyirəm. Təkcə Siz özünüz yox, bütün ailəniz, hörmətli Mehriban xanım və övladlarınız öz əməklərini, öz zəhmətlərini əsirgəmədən Azərbaycanın mədəniyyətini, elmini, Azərbaycanın əldə etdiyi nailiyyətləri dünyada tanıtmaq üçün böyük fədakarlıq göstərirsiniz. Bu, yalnız xalqa, dövlətə bütün varlığı ilə bağlı olan bir ailənin işidir. Mehriban xanımın, Sizin övladlarınızın böyük əməyi nəticəsində Azərbaycanımızın problemləri dünyaya çatdırılır, xalqımızın mənəvi, mədəni dəyərlərinin dünyaya yayılması sahəsində çox böyük işlər görülür. Bunlar heç kəsin nəzərindən qaçmır. Qoy Allah-Təala Sizə və bütün ailənizə kömək olsun ki, Azərbaycan Sizin rəhbərliyiniz altında ulu öndər Heydər Əliyevin yolu ilə irəliləyərək dünya dövlətləri içərisində həmişə öz uğurlarını göstərsin.

x x x

**Prezident İlham Əliyev:** Çox sağ olun.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləğinin artırılması və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Prezidentinin 2002-ci il 11 iyun tarixli fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Gənc istedadlar üçün xüsusi təqaüdün məbləğinin artırılması və "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 13 sentyabr tarixli 662 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Fəxri adlara görə aylıq təqaüdlərin artırılması və "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Hərbi-vətənpərvərlik tərbiyəsində xidmətlərə görə" Azərbaycan Respublikası medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1001-VQD nömrəli Qanunun tətbiqi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Fəttah Heydərovun "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycanın ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Fəttah Səməd oğlu Heydərov "İstiqlal" ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Bruney-Darüssalamın Sultanı Hacı Həssənal Bolkiaha təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "Bruney-Darüssalamın milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. İnanıram ki, Azərbaycan ilə Bruney arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost xalqınıza daim sülh və rifah diləyirəm".

# Mehriban xanım Əliyevanın gördüyü işlər humanizm prinsiplərindən qaynaqlanır

***Müasir dövrdə Azərbaycan dünyanın görünən bir tərəfinə çevrilib. Dünyanın elə bir ölkəsi yoxdur ki, Azərbaycan orada öz sözünü deməsin. İstər ictimai-siyasi baxışları, istər mədəni-sosial layihələri, istərsə də mötəbər tədbirlərin iştirakçısı olaraq. Şərqlə Qərbin ortaq dəyərlər modeli sayılan Azərbaycan dünyanın mədəniyyətlərarası dialoq mərkəzlərindən biridir. Tolerant və mehriban birgəyaşama mədəniyyəti baxımından, artıq dünya üçün bir örnəkdir. Bu və ya digər ümumbəşəri dəyərləri Azərbaycanın adına həkk edən, onun mövqeyini dünyaya bəyan edən Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da fasiləsiz və qətiyyətli fəaliyyətini nəzərə çatdırmalıyıq. Bu gün mübaliğəsiz deyə bilərik ki, dünyanın eşidilən səsində Azərbaycan adının vurğulanmasında Mehriban xanım Əliyevanın ximətləri kifayət qədərdir.***

Ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi və mənəvi rifahının yaxşılaşması naminə ardıcıl fəaliyyəti, eləcə də, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi istiqamətində gördüyü işlər Azərbaycanın beynəlxalq arenada tanınmasına, xalqımız haqqında obyektiv ictimai rəyin formalaşmasına təkan verib. Onun bu genişmiqyaslı layihələri təkcə Azərbaycanda deyil, dünya miqyasında da yüksək qiymətləndirilir. Mehriban xanım Əliyeva yaşından, milliyyətindən və dini etiqadından asılı olmayaraq, milyonlarla insanın ürəyini fəth edib. Belə ki, ətrafdakılara humanist münasibəti, ehtiyacı olan insanlara qayğısı, onların dərdinə şərik çıxması Mehriban xanım Əliyeva ətrafında yüksək imic formalaşdırıb. Odur ki, Mehriban xanım Əliyeva xeyirxahlığın və ümidin mücəssəməsinə çevrilib.

Qeyd edək ki, 1995-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan Mədəniyyətinin Dostları Fondu təsis olunub. 1996-cı ildə Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan - İrs" jurnalını təsis edib. 2002-ci ildə, O, Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib. 2004-cü il 10 may tarixindən Heydər Əliyev Fondunun prezidentidir. 2004-cü il dekabrın 28-də Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv, 2013-cü il iyunun 7-də Yeni Azərbaycan Partiyasının Sədr müavini vəzifəsinə seçilib. Bir il bundan əvvəl isə, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında Sərəncam imzalayıb. Bu Sərəncam Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyətinə verilən qiymət, Ona göstərilən daha böyük bir etimad idi.

Mehriban xanım Əliyeva Birinci vitse-prezident seçildikdən sonra ilk keçirdiyi müşavirə də Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olundu və burada ciddi tapşırıqlarını verdi. Çox keçmədən "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsi"nin icrası çərçivəsində yeni binaların tikintisinə başlanıldı. Bu istiqamətdə işlər indi də uğurla davam etdirilir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2017-ci ildə 900 məcburi köçkün ailəsi qəzalı binalardan yeni və rahat mənzillərə köçürülüb.



## APREL DÖYÜŞLƏRİNDƏ YARALANMIŞ ƏSGƏR VƏ ZABİTLƏR DÜNYANIN MÜASİR PROTEZ İSTEHSALÇILARI OLAN ŞİRKƏTLƏRİNİN YÜKSƏK TEXNOLOGİYALI MƏHSULLARI İLƏ TƏMİN OLUNDULAR

Vətən və torpaq uğrunda canından keçən, şəhid olan, yaralanan insanları Azərbaycan dövləti hər zaman diqqədə saxlayır, onların hər birinə böyük həssaslıqla yanaşır. Birinci vitse-prezidentin aprel döyüşləri zamanı yaralanmış bir qrup əsgər və zabitlə görüşməsi, "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsinin, məhz onun təşəbbüsü ilə reallaşması, bir daha göstərdi ki, Mehriban Əliyevanın Vətənə xidmətinin təməlində xalqına böyük sevgi, hər bir vətəndaşa, cəmiyyətin hər bir üzvünə həssas və qayğıkeş münasibət dayanır: "Siz Vətən uğrunda vuruşursunuz. Siz yaralanmısınız, xəsarət almısınız. Azərbaycan dövləti və Azərbaycan xalqı üçün hər bir əsgər əzizdir, dəyərlidir. Sizin tezliklə normal həyata qayıtmağınız üçün Azərbaycan dövləti bütün lazımi addımları atmağa hazırdır".

Göründüyü kimi, Azərbaycan dövləti hər zaman öz vətəndaşının yanındadır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondu tərəfindən aprel döyüşlərində yaralanmış bir qrup hərbi qulluqçulara protezlərin təqdim edilməsi dövlət rəhbərliyinin silahlı qüvvələrin şəxsi heyətinə göstərdiyi diqqət və qayğının daha bir nümunəsidir.

## "TOLERANTLIĞIN ÜNVANI - AZƏRBAYCAN"

Heydər Əliyev Fondu müxtəlif mədəniyyətlər və sivilizasiyaların qarşılıqlı zənginləşməsinə, xalqlararası dialoqun dərinləşməsinə, tolerantlıq ənənələrinin qorunmasına xüsusi diqqət ayırır. "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsini həyata keçirir. Layihə çərçivəsində dini abidə və ziyarətgahlarda təmir-bərpa işləri aparılır və tədbirlər təşkil edilir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Azərbaycan - tolerantlıq ünvanı" layihəsi çərçivəsində Bakıda Pir Həsən ziyarətgahı, "Müqəddəs Məryəm - Mövlud" pravoslav kilsəsi və Müqəddəs Mirodaşıyan Qadınlar Kafedral Kilsəsi, Şamaxıda Cümə məscidi və Gəncədə "Həzrəti Zeynəb" məscidindən tutmuş Fransanın müxtəlif bölgələrində kilsələrin, Strasburqda XIV əsr Kafedral Kilsəsinin vitrajlarının bərpasına, habelə, Həştərxanda Knyaz Vladimirə abidə ucaldılmasına qədər müxtəlif dini obyektlərdə bərpa işləri aparılıb. Beynəlxalq Birlik Mehriban Əliyevanın təşəbbüsü ilə Müqəddəs Roma katakombalarının bərpa olunmasını xristian aləminin müqəddəs abidələrinin qorunub-saxlanılmasını müsəlman dünyasının töhfəsi kimi qəbul edir.

## "BİZİM HƏYATA KEÇİRDİYİMİZ HƏR BİR LAYİHƏ, İLK NÖVBƏDƏ, VƏTƏNDAŞLARIN MARAQLARINI QORUMAĞA VƏ KÖMƏYƏ EHTİYACI OLAN İNSANLARA YARDIM ETMƏYƏ YÖNƏLİB"

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə təsis edilən "Regional İnkişaf" İctimai Birliyi də vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli layihələr reallaşdırıb. Bölgələrdə yaşayan vətəndaşların üzləşdiyi problemlərin, yerli əhalini kompleks şəkildə narahat edən problemlərin aradan qaldırılması kimi məsələləri əsas məqsəd kimi qarşıya qoyaraq elm, təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, ekologiya, İKT və infrastruktur layihələri həyata keçirir. Qısa bir zaman məsafəsində insan kapitalının formalaşdırılması, əhalinin tibbi sağlamlığının mühafizəsi, sosial-məişət təminatının yaxşılaşdırılması istiqamətində müxtəlif səpkili tədbirlər həyata keçirib. İnsanların müxtəlif növ problemlərlə üzləşərək, onların həlli üçün ayrı-ayrı qurumlara müraciət edən "Regional İnkişaf" İctimai Birliyi, məhz həmin problemləri aidiyyəti təşkilatlara çatdıran vasitəçi qurum kimi fəaliyyətini davam etdirir. Mehriban Əliyevanın vurğuladığı kimi, bizim həyata keçirdiyimiz hər bir layihə, ilk növbədə, vətəndaşların maraqlarını qorumağa və köməyə ehtiyacı olan insanlara yardım etməyə yönəlib: "Regional İnkişaf" İctimai Birliyini təsis edərkən, əsas məqsədimiz dövlət qurumları, qeyri-hökumət təşkilatları, sahibkarlar və yerli əhali arasında konstruktiv əməkdaşlıq modeli yaradaq, insanları narahat edən problemlərin aradan qaldırılmasına nail olmaq idi. Düşünürəm ki, biz bunu bacardıq. Regionlarda ictimai nəzarətin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğu, ölkəmizin ictimai-siyasi və sosial-mədəni həyatını əhatə edən mühüm layihələrin reallaşdırılması istiqamətində uğurlu nəticələr əldə edilmişdir".

Həqiqətən də, "Regional İnkişaf" İctimai Birliyi qısa bir vaxt ərizində regionların həyatında mühüm rol oynayıb.

## ÖLKƏMİZDƏ KEÇİRİLƏN BÜTÜN TƏDBİRLƏR YÜKSƏK TƏŞKİLATÇILIQ SƏVİYYƏSİ VƏ KEYFİYYƏT STANDARTI İLƏ SEÇİLİR

Son dərəcə maraqlı, qədim tarixi və zəngin mədəni dəyərləri olan Azərbaycanın Avropanın həyatında baş verəcək ilk oyunlara ev sahibliyi etməsi ölkəmizin idman sahəsində son illərdə qazandığı uğurlardan qaynaqlanırdı. İlk Avropa Oyunlarının Təşkilat Komitəsinə Mehriban Əliyevanın Sədr təyin edilməsi artıq hər şeyi demiş oldu. Təşkilatçılıq bacarığı ilə seçilən Azərbaycanın Birinci Xanımının rəhbərliyi ilə indiyə qədər keçirilən bütün tədbirlər yüksək təşkilatçılıq səviyyəsi və keyfiyyət standartı ilə seçilib. Azərbaycan ictimaiyyəti və beynəlxaq təşkilatlar, xarici qonaqlar "Eurovision-2012" yarışmasında bu təşkilatçılıq bacarığının hansı səviyyədə olmasının şahidi oldular. Məhz Azərbaycan dövlətinin iradəsi, Mehriban xanım Əliyevanın təşkilatçılıq qabiliyyəti sayəsində "Eurovision" tarixində yeni keyfiyyət standartı müəyyən edildi və ölkəmiz böyük miqyaslı yarışı ən yüksək səviyyədə keçirməklə nüfuz qazandı. 2017-ci ildə isə paytaxtımızda keçirilən İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinə Mehriban Xanım Əliyevanın Sədrlik etməsi də, əlbəttə ki, IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ilin ən böyük idman hadisəsi olduğunu göstərdi.

İctimai, mesenatlıq və xeyriyyəçilik əməlləri, xalqlar arasında dostluğun möhkəmlənməsi, sivilizasiyalararası dialoq da daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyət, qayğıya ehtiyacı olan uşaqlara, təhsilə diqqət və s. Mehriban Əliyevanın humanizm prinsiplərindən qaynaqlanır. Onu da vurğulayaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında müstəsna xidmətləri ilə seçilir. Göründüyü kimi, dünyanın bütün ölkələrində fondun Azərbaycan həqiqətlərinin təqdimi istiqamətində gördüyü işlərə münasibət yüksəkdir. Dünyanın bir sıra nüfuzlu mükafatlarına layiq görülməsi də, elə bu bəşəri dəyərə münasibətinin və fəaliyyətinin nəticəsidir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın II dərəcəli Müqəddəs Məlaksima Knyaginya Olqa ordeni ilə təltif edilməsi də elə gördüyü işlərin nəticəsidir. Mehriban xanım Əliyevanı bu ordenlə Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə, habelə, Rusiya ilə Azərbaycan arasında dostluğun möhkəmləndirilməsi sahəsində çoxsaylı xidmətlərinə görə, Moskvanın və bütün Rusiyanın patriarxı Kirill təltif etdi. Bu yüksək ordenlə kilsə, dövlət və ictimai həyatın müxtəlif sahələrində böyük xidmətləri olan qadınlar təltif edilirlər.

Mehriban Əliyeva qarşıya qoyduğu məqsədə doğru daim addımlayır. Özünü, özünün kimliyini gördüyü işlərlə təsdiqləyir və cahanda məxsusi dəyərlərini ortaya qoyaraq, öz həyat missiyasını gerçəkləşdirir, Azərbaycan tarixinə silinməz bir obraz həkk edir. Azərbaycanın çiçəklənməsinin və beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verən Mehriban xanım Əliyevanın gələcək fəaliyyətinin əsasında daha geniş planlar və layihələrin həyata keçirilməsi dayanır.

***Zümrüd BAYRAMOVA***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

23 fevral 2018-ci il

# Əli Əhmədov ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov fevralın 22-də ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Ehtiyacların Dəyərləndirilməsi Missiyasının nümayəndə heyətini partiyanın mənzil-qərargahında qəbul edib.

Görüşdə YAP-ın Sədr müavini Əli Əhmədov Yeni Azərbaycan Partiyasının aprelin 11-də keçiriləcək prezident seçkilərinə hazırlıq işlərindən bəhs edərək, seçkilərin ədalətli və şəffaf keçiriləcəyinə əminliyini ifadə edib.

Nümayəndə heyətinin rəhbəri, ATƏT/DTİHB-in Seçki Departamentinin rəhbəri Aleksandr Şlik görüşdən məmnunluğunu bildirərək, qurumun Azərbaycanda seçkilər prosesinə maraq göstərdiyini ifadə edib.

Görüşdə YAP İcra katibinin müavini, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov və YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva iştirak ediblər.

# Nazirlər Kabinetinin 2018-ci il üçün iş planında nəzərdə tutulmuş məsələlərə dair iclas keçirilib



Fevralın 22-də Baş nazir Artur Rasi-zadənin sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"nda nəzərdə tutulmuş məsələlərə dair iclas keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin inkişaf istiqamətləri haqqında" və "İcbari tibbi sığortanın tətbiqi üzrə pilot layihənin icrasının yekunları barədə təqdimatın keçirilməsi haqqında" məsələlərə dair müvafiq qurumların rəhbərlərinin hesabatları dinlənilib, geniş fikir mübadiləsi aparılıb. Müzakirələrdən sonra peyk kommunikasiya xidmətlərinin inkişaf istiqamətləri bəyənilib, icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlər məqbul hesab edilib. Aidiyyəti qurumlara nəzərdə tutulan digər tədbirlərin həyata keçirilməsi tapşırılıb. Nazirlər Kabinetinin iclasında, həmçinin "İcra intizamı haqqında" və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün dəqiqləşdirilmiş iş planı haqqında" cari məsələlərə də baxılaraq müvafiq qərarlar qəbul edilib.



# Ermənistanda daha bir hərbçi ölüb

Erməni tərəfi cəbhə bölgəsində daha bir təxribata cəhd edib. SİA-nın Ermənistan mətbuatına istinadən verdiyi məlumata görə, təxribatın qarşısı alınıb. Məlumata əsasən, düşmən tərəfi cavab atəşi ilə susdurulub. Atışma zamanı erməni əsgər, 1998-ci il təvəllüdlü Qriqor Eqoyan ölüb.

# ATƏT PA-nın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi istefa verib




ATƏT-in Parlament Assambleyasının (ATƏT PA) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristin Vigenin tutduğu vəzifədən istefa verib. AZƏRTAC xəbər verir ki, istefa barədə qərarını o, fevralın 22-də Vyanada keçirilən ATƏT PA-nın 17-ci qış sessiyasında elan edib.

Keçmiş xüsusi nümayəndənin regiona 2017-ci ilin sentyabr ayında səfəri çərçivəsində mandatına və mövcud praktikaya zidd şəkildə Azərbaycan tərəfinin razılığı olmadan işğal edilmiş Azərbaycan ərazilərində yaradılmış qanunsuz rejimin nümayəndələri ilə görüşməsi Azərbaycan tərəfinin kəskin etirazına səbəb olub. Azərbaycanın qurumdakı nümayəndə heyəti K.Vigeninə qarşı etimadsızlıq məsələsini qaldırmış və onun bu vəzifədə bitərəf, şəffaf və hər üç Cənubi Qafqaz dövlətinin etimadına malik şəxs ilə əvəzlənməsi tələbini qoymuşdu.

# Siyavuş Novruzov: "Mehriban xanım Əliyeva cənab Prezident İlham Əliyevə bir nömrəli dayaqdır"



"Ötən il fevralın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezident təyin olunan Mehriban Əliyevanın uğurlu və genişmiqyaslı fəaliyyəti ölkəmizin inkişafı, vətəndaşlara dövlət diqqəti və qayğısının gücləndirilməsi, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsi baxımından böyük əhəmiyyətə malikdir". Bu sözləri www.yap.org.az saytına Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

Onun sözlərinə görə, Mehriban xanım Əliyeva hələ Birinci vitse-prezident təyin edilməmişdən öncə ölkənin siyasi həyatında fəal iştirakı ilə Azərbaycanın inkişafına, sosial məsələlərin həllinə mühüm töhfələr verib: "Təsadüfi deyil ki, Azərbaycan vətəndaşları Mehriban xanım Əliyevanın həm də millət vəkili kimi fəaliyyətini yüksək qiymətləndirib, ona yüksək etimad göstəriblər. Məhz Mehriban xanım Əliyevanın təşəbbüsü ilə çox genişmiqyaslı sosial-iqtisadi layihələr həyata keçirilib. Yeni tibb ocaqları, məktəblər, uşaq bağçaları, internat məktəbləri istifadəyə verilib. Mehriban xanım Əliyeva həmçinin Milli Məclisdə Amnistiya aktının qəbul olunması təşəbbüsü ilə çıxış edib və bunun sayəsində minlərlə məhkum azadlığa qovuşub".

YAP İcra katibinin müavini vurğulayıb ki, Azərbaycanın Birinci vitse-prezidentinin fəaliyyəti Azərbaycan dövlətinin maraqlarına söykənir: "Mehriban xanım Əliyevanın Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində yorulmaz və uğurlu fəaliyyəti mühüm nəticələr verir. Heydər Əliyev Fondunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaratdığı internet portalı, müxtəlif dillərdə hazırladığı "Qarabağ həqiqətləri" adlı bukletlər dünya ictimaiyyətinə problemin kökləri, səbəbləri haqqında kifayət qədər məlumat çatdırıb. Fondun dəstəyi ilə 2007-ci ildən başlayaraq hər il müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlər keçirilir, bu istiqamətdə təbliğat aparılır. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə atılan ən əhəmiyyətli addımlardandır. Bu kampaniyaya start veriləndən sonra bir sıra ölkələrin parlamentləri Xocalı soyqırımının tanınması ilə bağlı qərarlar qəbul ediblər, ayrı-ayrı dövlətlərdə Xocalı soyqırımı abidələri qoyulub".

Siyavuş Novruzov xatırladıb ki, Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi ilk müşavirəsini qaçqın və məcburi köçkün ailələrinin problemlərinə həsr edib: "2017-ci ilin martın 9-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirilib. Bu, Mehriban xanım Əliyevanın yeni vəzifəyə təyinat aldıqdan sonra keçirdiyi ilk müşavirə idi. Mayın 30-da isə Mehriban xanım Əliyevanın şəxsən iştirakı ilə Qaradağ rayonunda məcburi köçkün ailələri üçün yaşayış kompleksinin təməli qoyuldu. Bu, Birinci vitse-prezidentin fəaliyyətində sosial məsələlərin və humanizm prinsipinin xüsusi yer tutduğunu göstərir"

Milli Məclisin komitə sədri onu da qeyd edib ki, Mehriban xanım Əliyeva həmçinin Cənubi Qafqazın ən böyük partiyası olan YAP-ın sədr müavinidir. Partiyanın güclənməsində, inkişafında xüsusilə, gənclərin, qadınların partiyaya üz tutmasında Mehriban xanım Əliyevanın rolu çox böyükdür. Mehriban xanım Əliyeva cənab Prezident İlham Əliyevə bir nömrəli dayaqdır. "Mehriban xanım Əliyevanın fəaliyyətində multikulturalizmin mühüm aspektlərindən biri olan mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsi istiqaməti xüsusi yer tutur. Mehriban xanım Əliyevanın fəaliyyəti həm ölkə miqyasında, həm də beynəlxalq müstəvidə yüksək qiymətləndirilir. Mehriban xanım Əliyeva mədəniyyətin təbliği, elm, səhiyyə, idman, təhsil, texnologiya və ekologiyanın inkişafı işinə verdiyi töhfəyə, həmçinin ictimai, sosial və mədəni həyatda fəal iştirakına, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, humanizm prinsipinə sadiqliyinə görə müxtəlif nüfuzlu beynəlxalq mükafatlara layiq görülüb",-deyə Siyavuş Novruzov bildirib.

Siyavuş Novruzov deyib ki, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində ölkəmizdə keçirilən tədbirlər Azərbaycanın beynəlxalq nüfuzunun artmasına töhfələr verib: "Eurovision-2012" mahnı müsabiqəsi Bakıda ən yüksək səviyyədə keçirilib. Bu da ölkəmizin, Azərbaycan mədəniyyətinin dünyada tanıdılması işinə xüsusi töhfələr verib. Eyni zamanda, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə çalışan "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin üzvlərinin yüksək əzmkarlığı sayəsində ilk Avropa Oyunları uğurla baş tutdu. Ötən il isə paytaxt Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsi də Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uğurla fəaliyyət göstərdi, Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına da müvəffəqiyyətlə ev sahibliyi etdi".

YAP İcra katibinin müavini bildirib ki, Mehriban xanım Əliyeva bundan sonra da ölkəmizin inkişafı naminə yorulmaz fəaliyyətini uğurla davam etdirəcək, Azərbaycanın maraqlarını sonuna qədər müdafiə edəcək.

# İslam Əməkdaşlıq Təşkilatının baş katibi Xocalı soyqırımı ilə bağlı bəyanat yayıb




İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi İyad bin Amin Mədəni Xocalı soyqırımı ilə bağlı bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində törədilmiş qırğın zamanı həyatını itirmiş hər kəsin xatirəsini yad edən baş katib Xocalı hadisəsinin Ermənistan tərəfindən Azərbaycan ərazisinin işğalının nəticəsi olduğunu vurğulayır. O, işğal olunmuş Azərbaycan ərazilərində mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş hərəkətləri müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və genosid kimi qiymətləndirən İƏT Xarici İşlər Nazirləri Şurasının əvvəlki sessiyalarında qəbul edilmiş qətnamələrə və İslam Sammitinin 12-ci iclasının Qahirə Yekun Kommunikesinə istinad edib. Baş katib Azərbaycan Respublikasının ərazilərinin işğalına son qoyulması və ərazi bütövlüyünün bərpası istiqamətində təşəbbüslərinə və səylərinə İƏT-in tam dəstəyini bir daha qeyd edib.






# “Xocalı şahidləri danışır” kitabının təqdimatı olub

***Fevralın 22-də Beynəlxalq Mətbuat Mərkəzində “Xocalı şahidləri danışır” kitabının təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, “Azərbaycan” qəzeti tərəfindən nəşr edilən kitabda Xocalı soyqırımının şahidi olan insanların acı xatirələri əksini tapıb.***

Kitabın ideya müəllifi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, redaktoru “Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, buraxılışa məsul Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev, tərtibçisi isə “Azərbaycan” qəzetinin şöbə redaktoru İxtiyar Hüseynlidir.

Kitab Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun maliyyə dəstəyi ilə nəşr olunub. Təqdimat mərasimində əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimin moderatoru, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş Xocalı soyqırımının 26-cı ildönümü ərəfəsində işıq üzü görən “Xocalı şahidləri danışır” kitabının əhəmiyyətindən söhbət açıb. Bildirib ki, Xocalı faciəsinin canlı şahidlərinin kitabda toplanmış xatirələri xüsusi önəm daşıyır. O.Səmədov Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində gördükləri işlərdən danışıb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Gəray Fərhadov çıxış edərək Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasətin ağır nəticələrindən bəhs edib. Diqqətə çatdırıb ki, Ermənistan Azərbaycana qarşı bir əsrdə dörd dəfə ərazi iddiası qaldırıb. Ermənistan “böyük Ermənistan” yaratmaq xülyası ilə torpaqlarımıza göz dikib. Qeyd edib ki, Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov kitaba yazdığı ön sözdə bu hadisələrin xronologiyasını, tarixi köklərini ətraflı şəkildə göstərib.

G.Fərhadov tarixə nəzər salaraq deyib: “1805-ci ildə Dağlıq Qarabağın əhalisi 10 min 100 nəfər idi ki, onlardan 10 mini azərbaycanlı, 100-ü isə erməni olub. 1988-ci ildə Dağlıq Qarabağın əhalisinin sayı 189 min nəfər idi. Ermənilər Çar Rusiyasının düşünülmüş siyasəti nəticəsində İrandan və Osmanlı İmperiyasından Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağa və İrəvana köçürülüblər. Beləliklə, Dağlıq Qarabağda demoqrafik vəziyyət ermənilərin xeyrinə dəyişib. Bizim faciələrimiz də elə o zamandan başlayıb. Planlarını həyata keçirmək üçün ermənilər bir əsrdə yüzlərlə terror, kütləvi qətl hadisələri törədiblər”.




Xocalı soyqırımı barədə danışan dövlət komitəsinin sədr müavini bildirib ki, 1992-ci ildə keçmiş ittifaqın Xankəndidəki 366-cı motoatıcı alayının zirehli texnikasının köməyi ilə Xocalı mühasirəyə alındı, hər tərəfdən atəşə tutuldu və soyqırımı törədildi. Ermənilər deyirlər ki, bu, təsadüfi soyqırımıdır. Ancaq bu, planlı fəaliyyət idi, Xocalını tamamilə yer üzündən silmək, xocalılıların hamısını məhv etmək məqsədi güdürdü. Bu vəhşilik XX əsrin sonunda, dünyanın bu cür inkişaf etdiyi bir vaxtda bəşəriyyətin gözü qarşısında baş verib. Bəşəriyyət isə buna susub. Bu, bəşəriyyət üçün qara ləkədir, utancdır.

Milli Məclis sədrinin müavini Bahar Muradova çıxış edərək bildirib ki, bu gün insan cildində olub, həm tarixi mərhələlərdə, həm də indiki zamanda insanlıq əleyhinə vandalizm aktları törədən bəzi varlıqlar bəlkə də özlərini günün və o hadisələrin qəhrəmanı hesab edirlər. Amma vaxt gələcək ki, onlar bu hadisələrə görə məhz məhkum kimi cavab verəcəklər. Bu gün təqdimatı keçirilən bu kitab, onun hər səhifəsi, bu kitabın ərsəyə gəlməsi üçün zəhmət çəkən insanlar, xüsusilə bu müsahibələri həmin günlərin şahidlərindən götürmüş həmvətənlərimiz, öz həyatının ən qanlı, unudulmaz səhifələrini böyük dəhşətlər içərisində danışan insanlar və onların dilindən çıxan hər kəlmə zaman gələcək ermənilərə qarşı ittiham aktının tərkib hissəsi olacaq. “Hesab edirəm ki, bu cür kitabların bu gün yazılması çox vacibdir. Biz bu hadisələri qələmə almaqla onları tarixi fakta çeviririk. Hesab edirəm ki, bu kitab qanlı Xocalı soyqırımını törədənlərin tarixi məhkəməsinin qurulması üçün bir mənbə rolunu oynayacaq”, - deyə B.Muradova əlavə edib.

Milli Məclisin sədr müavini deyib ki, “Xocalıya ədalət!” kampaniyası çərçivəsində bu gün çox böyük işlər görülür. Əlbəttə, Azərbaycan dövləti, Prezidenti, cəmiyyəti, müxtəlif təşkilatlar, dövlət qurumları, o cümlədən Milli Məclis və onun beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyət göstərən nümayəndə heyətləri bu istiqamətdə əlaqəli iş aparırlar. Kitabda əksini tapan beynəlxalq sənədlərin Avropa Şurasında, ATƏT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq qurumlarda qəbuluna nail olunmuşdur ki, bu, Azərbaycanın diplomatik səylərini, ədalət uğrunda mübarizə aparmaq imkanlarını genişləndirir və ən əsası tarixi qiymətin verilməsi üçün vacib rol oynayır.

Milli Məclisin mədəniyyət komitəsinin sədri, akademik Rafael Hüseynov kitabda toplanan materialların əhəmiyyətindən danışıb. O deyib ki, Xocalı soyqırımını törədənlər gec-tez mütləq öz layiqli cəzalarını alacaqlar. Əminəm ki, Xocalı şahidlərinin ağrı-acılarını, iztirablarını əks etdirən bu kitabdan gün gələcək hüquqi bir sənəd kimi beynəlxalq səviyyədə istifadə ediləcək.

Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov Xocalı faciəsinin dünyada tanıdılması istiqamətində mühüm işlərin görüldüyünü deyib. Kitabın əhəmiyyətindən danışan icra başçısı bildirib ki, kitabda 200 il ərzində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları, ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi, onların terror təşkilatları yaratmaları barədə faktlar yer alıb.

Mərasimdə çıxış edən Xocalı sakini Mehriban Əliyeva qeyd edib ki, faciədən 26 il keçməsinə baxmayaraq, xocalılılara bu barədə danışmaq çox çətindir. Lakin biz bu acı xatirələrimizi, dərdimizi danışmalı, haqq səsimizi beynəlxalq ictimaiyyətə çatdırmalıyıq. O, Xocalı soyqırımının tarixi, ermənilərin dinc insanlara, xüsusən də qadınlara, uşaqlara qarşı vəhşilikləri barədə söhbət açıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Elçin Əhmədov Xocalı soyqırımının 26-cı ildönümü ərəfəsində belə bir kitabın təqdimatının keçirilməsinin əhəmiyyətindən danışıb. Xocalı faciəsi barədə həqiqətlərin bütün dünyaya çatdırılması üçün bu kitabın müxtəlif dillərə tərcümə olunmasının vacibliyini diqqətə çatdırıb.

Milli Məclisin deputatı Rafael Cəbrayılov bildirib ki, “Xocalı şahidləri danışır” kitabı Xocalı soyqırımının tanıdılması, gələcək nəsillərə bu xatirələrin ötürülməsi və yaddaşların təzələnməsi istiqamətində mühüm addımdır. Xocalı soyqırımı bir əsrdən artıq ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı zəncirinin bir həlqəsidir.

“Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov kitab haqqında fikirlərini bölüşərək bildirib ki, Xocalı soyqırımı ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş ən dəhşətli cinayətlərdən biridir. B.Sadıqov qeyd edib ki, bu gün Azərbaycan dövləti Ermənistanın cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm işlər görür.

Mərasimə yekun vuran Bilik Fondunun icraçı direktoru Oktay Səmədov vurğulayıb ki, XX əsrin ən böyük faciəli hadisələrindən biri kimi şüurumuza, ruhumuza hopmuş Xocalı qətliamı təkcə azərbaycanlılara qarşı deyil, ümumilikdə bütün bəşəriyyətə qarşı törədilən cinayətdir. Bu cinayəti törədənlərin insanlığa qənim kəsildiyini isə təkcə tarixi sənədlər deyil, həm də faciənin canlı şahidi olmuş soydaşlarımızın xatirələri sübuta yetirir.



# Azərbaycan-Rusiya dövlət sərhədində ilk sərhəd nişanının quraşdırılması münasibətilə təntənəli mərasim keçirilib

***Fevralın 22-də Qusar rayonunun Zuxul kəndi ərazisində Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə dövlət sərhədində ilk sərhəd nişanının quraşdırılması münasibətilə təntənəli mərasim keçirilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Sərhəd Mühafizəsi tarixinin əlamətdar hadisələrindən olan təntənəli mərasimdə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti Sərhəd Xidmətinin nümayəndə heyətləri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sər-





hədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət komissiyalarının üzvləri iştirak ediblər.

Azərbaycan-Rusiya dövlət sərhədində ilk sərhəd nişanı quraşdırıldıqdan sonra Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev, xarici işlər nazirinin müavini, Azərbaycan Respublikasının Ru-



siya Federasiyası ilə dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyasının sədri Xələf Xələfov, Rusiya Federasiyasının Azərbaycan Respublikası ilə dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyasının sədri Vadim Postnov, Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti Sərhəd Xidmətinin nümayəndə heyətinin rəhbəri, general-leytenant Aleksey Buyerov çıxış ediblər.

Çıxışlarda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli siyasəti, ölkəmizin dövlət maraqlarının ardıcıl və məqsədyönlü müdafiəsi sayəsində Rusiya Federasiyası ilə dövlət sərhədlərimizin delimitasiyası və demarkasiyası üzrə fəaliyyətin artıq son mərhələyə qədəm qoyduğu xüsusi vurğulanıb. Bu hadisənin Azərbaycan ilə Rusiya arasında dövlətlərarası münasibətlərin mehriban qonşuluq və dostluq, strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq səviyyəsinin növbəti göstəricisi olduğu qeyd edilib. Həmçinin dövlət sərhədinin demarkasiyası işlərinin ən yaxın zamanda uğurla başa çatdırılacağına əminlik ifadə olunub.

Sonra Xələf Xələfov və Vadim Postnov Azərbaycan-Rusiya dövlət sərhədində ilk sərhəd nişanının quraşdırılmasına dair Protokolu imzalayıblar.

# MSK: Seçkiqabağı təşviqat üçün ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq KİV-lərin adları açıqlanıb



2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində kütləvi informasiya vasitələrində prezidentliyə qeydə alınan namizədlərə seçkiqabağı təşviqat aparmaq məqsədilə aşağıda göstərilən kütləvi informasiya vasitələrində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq: İctimai Televiziya və Radio Yayımları Şirkəti; "Azərbaycan" qəzeti; "Xalq qəzeti"; "Bakinski raboçi" qəzeti. Bu barədə AZƏRTAC-a Mərkəzi Seçki Komissiyasında məlumat verilib.

Yuxarıda göstərilən qurumlar, o cümlədən digər teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat üçün ödənişli efir vaxtı və yaxud dərc üçün yer ayrılmasının mümkünlüyünə dair qərar qəbul etdikdə, bu barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müvafiq bildirişlər göndərməli, efir vaxtının verilməsinə və dərc üçün yerin ayrılmasına görə ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları prezident seçkilərinin təyin edilməsi haqqında qərarın rəsmi dərc olunmasından sonra ən geci 30 gün keçənədək dərc etməlidirlər.

# Azad iqtisadi zonanın fəaliyyəti qanunla tənzimlənəcək



Fevralın 22-də Milli Məclisin təbii ehtiyatlar, energetika və ekologiya, iqtisadi siyasət, sənaye və sahibkarlıq, hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında "Ələt azad iqtisadi zonası haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, birinci oxunuşdan sonra qanun layihəsinə edilmiş əlavə və dəyişikliklər barədə məlumat verən Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov sənəddə redaktə xarakterli bəzi düzəlişlərin aparıldığını bildirib. Əsaslı dəyişikliklər azad zona səlahiyyətli qurumunun hüquq və vəzifələrinə, idarə edilməsinə, developerin hüquq və vəzifələrinə, azad zonada gömrük işi, sərhəd rejimi, əmək qaydaları və mübahisələrin həlli qurumlarının qərarlarının icrasına dair maddələrdə edilib. Azad zonada işçi dili barədə maddəyə Azərbaycan və ingilis dilləri ilə yanaşı "zərurət yarandıqda başqa dillər də" işlədilə bilər ifadəsi əlavə olunub. "Ələt azad iqtisadi zonası haqqında" qanun layihəsini yeni başlanğıc kimi qiymətləndirən iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə qeyd edib ki, qanun layihəsi kifayət qədər mükəmməl hazırlanıb, dünya təcrübəsindəki ən qabaqcıl qanunlara əsaslanıb, ölkəmizdəki iqtisadi qurumların tövsiyələri sənəddə nəzərə alınıb. Bu qanun parlamentlə hökumət arasında qarşılıqlı əməkdaşlıq nümunəsidir. Müzakirələrdə deputatlar Əli Məsimli, İlham Əliyev, Rafael Cəbrayılov, Vüsal Hüseynov, Milli Məclis Aparatının şöbə müdiri Nizami Səfərov qanun layihəsi barədə müsbət fikirlərini ifadə ediblər. Çıxışlarda qeyd və təkliflər də səslənib. İclasda deputatları narahat edən məqamlara aydınlıq gətirildikdən sonra "Ələt azad iqtisadi zonası haqqında" qanun layihəsi ikinci oxunuşda Milli Məclisin müzakirəsinə tövsiyə olunub.

# Azay Quliyev: "Ermənistanın beynəlxalq layihələrdən kənarda qalmasının səbəbi onun işğalçılıq siyasətidir"



ATƏT Parlament Assambleyasının (ATƏT PA) 17-ci qış sessiyasının daimi komitəsinin iclasında Ermənistan nümayəndə heyətinin rəhbəri Hermine Nağdalyan ənənəvi olaraq Azərbaycana qarşı iftiralar səsləndirib. O, Cənubi Qafqazda həyata keçirilən infrastruktur layihələrində Ermənistanın düşünülmüş şəkildə təcrid edilməsini qeyri-qanuni addım kimi dəyərləndirib. Erməni deputat beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini öz fəaliyyətinin əsas prinsiplərindən biri elan edən ATƏT PA-nı regional layihələrdən kənarda qalan Ermənistana qarşı bu cür "haqsız" mövqeyə münasibət bildirməyə çağırıb.

AZƏRTAC xəbər verir ki, ATƏT PA-nın vitse-prezidenti, Milli Məclisin deputatı Azay Quliyev çıxışında erməni deputatın söylədiyi məqamlara aydınlıq gətirib. O qeyd edib ki, ATƏT PA kimi nüfuzlu beynəlxalq platformada "Dağlıq Qarabağ respublikası" və ya "Dağlıq Qarabağ respublikasının parlamenti" kimi ifadələrin səsləndirilməsi qeyri-ciddilikdən xəbər verir. Heç bir beynəlxalq təşkilat belə bir qurumu tanımır və bütün bunlar ictimai fikri çaşdırmağa xidmət edən cəhdlərdən başqa bir şey deyil. Daha sonra vitse-prezident bildirib ki, bu gün beynəlxalq nəqliyyat və infrastruktur dəhlizləri Azərbaycan ərazisindən keçir. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Ermənistan bu təşəbbüslərə qoşulmaq üçün işğal olunmuş Azərbaycan ərazilərindən çıxmalı, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasına şərait yaratmalıdır. Lakin Ermənistan indiyə kimi işğalçılıq siyasətini davam etdirir. Ermənistanın bütün regional layihələrdən kənarda qalmasında əsas günah və məsuliyyət Azərbaycanın deyil, onilliklərdən bəri Azərbaycan ərazilərini işğal altında saxlayan Ermənistanın üzərinə düşür. Azərbaycan torpaqlarını işğalda saxlayan Ermənistan beynəlxalq layihələrdən təcrid olunmasından şikayətlənir. Bu şikayətin özünün məntiqi əsası yoxdur: "Mən erməni həmkarlarımı səmimi olmağa çağırıram. Aydındır ki, siz Yerevanda aldığınız təlimatlara uyğun olaraq, Azərbaycana hücumlar etmək üçün burada iştirak edirsiniz. Lakin bu beynəlxalq tədbir həmin təlimatların icra edilməsi üçün məkan deyil və sizi sessiyadakı işgüzar atmosferi pozmamağa çağırıram".

# Piter Teys: Naxçıvan Avropanın ən gözəl yerlərindən birinə çevrilib


A Journey From Heydarabad To Alinjagala Fortress – OpEd

February 20, 2018 Peter Tase 0 Comments

By Peter Tase

Ad closed by Google
Report this ad
Ads by Google

Vasif Talibov, the leader of Nakhchivan Autonomous Republic (Azerbaijan), has shown to the world a deep commitment towards strengthening his country's response to the threat of climate change, enhanced urban development, revamped sustainable tourism industry and promoted reforestation projects throughout the regions of Nakhchivan.

The architects of the Paris Agreement and international community in general ought to pay a greater attention to the remarkable accomplishments that were proudly implemented by Chairman Vasif Talibov, who has made Nakhchivan, the westernmost province of Azerbaijan, become as developed as any western European country.

Over the last decade, Chairman Talibov has radically transformed the renewable energy production matrix of Nakhchivan, a region that has the world's highest number of hydroelectric power plants per square kilometer, making this territory of Azerbaijan home of seven hydroelectric dams, one solar power plant and one gas turbine.

Furthermore, the city of Heydarabad, only a few meters away from the border with Armenia and a hundred yards away from a desolate precarious Armenian village, is testimony to a perfect urban setting with paved roads, where a brand new

Vasif Talibov, the leader of Nakhchivan Autonomous Republic

Spain's Continuing Export Boom – Analysis
February 22, 2018 0

Job And Cultural Insecurity, More Than Inequality, Fuels Populism – Analysis
February 22, 2018 0

Guns And Schools: Can The Market Do Better? – OpEd
February 22, 2018 0

Cryptocurrencies Don't Make Sense – OpEd
February 22, 2018 0

Hungarian MEP Says Orbán Targets Soros Because He Is 'Perfect Enemy'
February 22, 2018 0

Eurasia Review Videos

Turkey's Extending Em...

***Amerikalı jurnalist və tədqiqatçı Piter Teysin fevralın 20-də Amerika Birləşmiş Ştatlarında nəşr olunan "Eurasia Review" və Avropanın nüfuzlu qəzetlərindən olan "Moderndiplomacy" qəzetlərində "Heydərabaddan Əlincəqalaya səyahət" sərlövhəli məqaləsi işıq üzü görüb.***

Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə əldə olunan nailiyyətləri əks etdirən məqalədə qeyd edilir ki, muxtar respublikanın rəhbəri Vasif Talıbov Naxçıvanın regionlarının inkişafı, turizm infrastrukturunun yenilənməsi və meşə zolaqlarının salınması layihəsini həyata keçirməklə iqlim dəyişikliyi təhlükəsinə qarşı ölkəsinin dünya qarşısındakı mövqeyini möhkəmləndirib. Paris müqaviləsinin memarları və beynəlxalq ictimaiyyət Azərbaycanın qərbində yerləşən Naxçıvanı Qərbi Avropa ölkəsi kimi inkişaf etdirən Ali Məclisin Sədrinin həyata keçirdiyi layihələrə daha çox diqqət yetirməlidir.

Son on il ərzində Ali Məclisin Sədri Naxçıvanın yenilənən enerji resurslarını köklü şəkildə dəyişib. Naxçıvan Muxtar Respublikası ərazi nisbəti baxımından dünyanın ən çox hidroelektrik stansiyasına sahibdir. Burada beş hidroelektrik, bir ədəd günəş enerjisi və bir ədəd qaz-turbin stansiyası tikilib istifadəyə verilib.

Piter Teys vurğulayır ki, Ermənistanla sərhəddən yalnız bir neçə metr məsafədə və tərk edilmiş təhlükəli bir erməni kəndindən yüz metr aralıda yerləşən nümunəvi Heydərabad qəsəbəsində tikilmiş yeni yol, orta məktəb, xəstəxana və şəhər mərkəzinin infrastrukturu cazibədar bir turizm marşrutudur. Bundan əlavə, xarici ölkələrdən gələn qonaqlar Azərbaycan tərəfdə olan firavan şəhərin bütün şəraitini yüksək qiymətləndirdikləri bir vaxtda Ermənistan tərəfdə çiy kərpic, yaxud palçıqdan tikilmiş evlərdə yaşayan kifayət qədər yoxsul bir cəmiyyət var. Həmin kənd Yerevan faşist rejimi tərəfindən bu vəziyyətə salınıb.

Müəllif yazır: "2017-ci il noyabrın 23-də Şərur rayonuna səfər edərkən mən yolun hər iki tərəfində Naxçıvan muxtar dövləti tərəfindən meşə zolaqlarının salınması ilə bağlı başladılan kampaniyanı müşahidə etdim. Meşə zolaqlarının salınması kampaniyasına vətəndaş cəmiyyətləri cəlb olunmuşdu. Ali Məclis Sədrinin ideya və yüksək rəhbərlik bacarığı Azərbaycan Respublikasının iqtisadiyyatı üçün mühüm əhəmiyyətə malik olan turizm infrastrukturunu da əhatə edir. Tarixi-mədəni və arxeoloji abidələrin təmiri muxtar respublikanın dünyada təbliği üçün mühüm əhəmiyyətə malikdir. Tarixi abidələrin bərpa edilməsi və turizm infrastrukturunun dəstəklənməsi sahəsindəki praktiki liderlik təşəbbüsü Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsində mühüm rol oynayıb".


CITIES

A journey from Heydarabad to Alinjagala Fortress

Published 2 days ago on February 20, 2018
By Peter Tase

LATEST

ENERGY / 12 mins ago
Higher Shares of Renewable Energy Central to Sustainable Development Across Southeast Asia

EASTERN EUROPE / 1 hour ago
Can Azerbaijan fall into the Turkish pitfall?

TECH / 2 hours ago
Digital Controllership: Finance and Accounting Robotic Process Automation a Priority

MIDDLE EAST / 3 hours ago
Why US not trustworthy ally for Turkey

ENERGY / 4 hours ago

Piter Teys onu da diqqətə çatdırır ki, Naxçıvan şəhərindən təxminən birsaatlıq məsafədə yerləşən Əlincəqala Ali Məclis Sədrinin ideyasının şah əsəridir. Bura əsas turistik ərazidir, VI əsrdə dağın üzərində tikilmiş tarixi abidə və mükəmməl mühəndislik ixtirasıdır. Müdafiə sistemini qüvvətləndirən istehkamlar 1800 metr yüksəklikdədir. Azərbaycanda yüksək hündürlükdə tikilmiş digər qalalar da var, lakin onlar Əlincəqala ilə müqayisə edilə bilməz. Təbii maneələr və istehkam birləşmələri bu qalanı alınmaz edib. Dağın üzərində 50-yə yaxın bina: anbarlar, hamam, təndirlər, zərbxana, silah anbarı və hökmdar sarayı yerləşib. Bir çox hökmdarlar bu qalada öz xəzinələrini saxlamışdır; Azərbaycan Atabəyləri, Eldənizlər, Hülakülər və Cəlairilər.

O zaman Əlincəqaladan daha təhlükəsiz bir yer tapmaq çətin idi. Əlincəqala saxlancına qoyulan xəzinələrin miqdarı o qədər idi ki, Çobani sülaləsindən olan Məlik Əşrəfə həmin sərvəti daşımaq üçün 1000 dəvə və 400 ədəd qatır lazım olmuşdu.

Məqalədə qeyd edilir ki, qartalların yuva qurduğu qalaya yalnız iki yol var. Qalanın şərq yamacında dar cığır var ki, oradan yalnız iki nəfər qalxa bilər, lakin həmin yol 3 divarla bağlanıb. Hər bir divarın hündürlüyü 9 metrdir və kiçik kərpicdən deyil, böyük daşlardan inşa edilib. Divarları orta əsr topları ilə dağıtmaq belə, mümkünsüz idi. Bundan əlavə, qalaya gedən yollarda inşa edilmiş nəzarət binaları və xəbərdarlıq məntəqələri ilə yamaclar arasında, bir-birindən 20-25 addım məsafədə iki və ya üç balaca sığınacaq var. Ümumiyyətlə, Əlincəqalada hər bir santimetr ərazinin alınması hücum edənlərin həyatı bahasına başa gəlirdi. Əlincəqala dik dağın başında yerləşir və zirehli geyimli hər bir döyüşçünün qalaya qalxması onun gücünün tükənməsinə gətirib çıxara bilərdi. Buna görə də qalaya qalxmaq istəyənlər 600-dən çox qala müdafiəçisinin oxlarına asan bir hədəf olurdu.

Dünya tarixinə Naxçıvan Muxtar Respublikasının bəxş etdiyi bu tarixi abidə və digər orta əsr abidələri Naxçıvanda dəqiqliklə bərpa edildiyini vurğulayan Piter Teys qeyd edir ki, həmin abidələri ziyarət edib baxmaq çox asandır. Ali Məclis Sədri Vasif Talıbov Naxçıvanı Avropanın ən gözəl yerlərindən birinə çevirib. Əlincəqalada bərpa işləri onun təşəbbüsü ilə həyata keçirilib.

Oxucular məqalə ilə daha ətraflı burada tanış ola bilərlər.
https://www.eurasiareview.com/20022018-a-journey-from-heydarabad-to-alinjagala-fortress-oped/
https://moderndiplomacy.eu/2018/02/20/journey-heydarabad-alinjagala-fortress/

***AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosu***

# Ekologiya və təbii sərvətlər naziri Salyan rayonunda vətəndaşlarla görüşüb

***Ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov fevralın 22-də Salyan şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Salyan, Neftçala, Cəlilabad və Biləsuvar rayonlarının sakinləri ilə görüşüb.***

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən xəbərə görə, nazirliyin idarə və departamentlərinin, həmçinin tabeli qurumlarının iştirak etdiyi qəbulda ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, bioresurslar, hidrometeorologiya və s. məsələlərlə bağlı 40-a yaxın vətəndaşın müraciəti nə baxılıb.



Görüşdə vətəndaşların müraciət, şikayət və təklifləri dinlənilərək onların aradan qaldırılması, hərtərəfli öyrənilməsi və araşdırılaraq qanunvericiliyə uyğun müvafiq tədbirlərin görülməsi üçün nazirliyin müvafiq strukturlarının rəhbərlərinə konkret tapşırıqlar verilib. Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb, bəzi müraciət və şikayətlər araşdırılması məqsədilə nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

# Hikmət Hacıyev: "Ermənistan dünya ictimaiyyətini çaşdırmaq əvəzinə beynəlxalq öhdəliklərini yerinə yetirməlidir"

***Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan Avropa Parlamentində çıxış edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar faktları, beynəlxalq hüququn norma və prinsiplərini təhrif etmək və cəfəng iddialar irəli sürməklə məşğuldur. Biz yenə də Ermənistan xarici işlər nazirini beynəlxalq hüquq və Helsinki Yekun Aktı barədə maarifləndirmək məcburiyyətindəyik.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Edvard Nalbandyanın Avropa Parlamenti xarici əlaqələr komitəsində 21 fevral tarixli çıxışını şərh edərək bildirib.




Hikmət Hacıyev deyib ki, dövlətlərin ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət müasir beynəlxalq münasibətlərin təməlini təşkil edir. Bunun əksi beynəlxalq münasibətlərdə xaos və keçən əsrin 30-cu və 40-cı illərinə qayıtmaq deməkdir. Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağın aqressiv erməni separatizmi meylləri əsasında birtərəfli qaydada Azərbaycandan ayrılması cəhdlərinin SSRİ qanunlarına zidd olması ali Konstitusiya səviyyəsində təsdiqlənib. Azərbaycan müstəqillik əldə edəndə həmin dövrdə tətbiq olunan qanunvericiliyə əsasən Dağlıq Qarabağ aydın şəkildə Azərbaycan ərazilərinin tərkib hissəsi hesab olunurdu. "Uti possidetis" prinsipi aydın şəkildə müəyyən edir ki, Azərbaycan müstəqilliyini əldə etməmişdən əvvəl sovet qanunları ilə müəyyən edilmiş sərhədləri daxilində müstəqilliyini elan edib. Həmçinin Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları zorakılıq, terror və Dağlıq Qarabağın köklü Azərbaycan icmasının etnik təmizlənməsi ilə müşayiət olunub, SSRİ-nin süqutundan sonra Ermənistanın Azərbaycana qarşı açıq müharibəsi ilə davam edib və Azərbaycan ərazilərinin 20 faizi işğal olunub. İşğal olunmuş ərazilərdə və Ermənistan ərazisində köklü Azərbaycan əhalisinə qarşı etnik təmizləmə törədilib. Azərbaycan əleyhinə hərbi təcavüzün birbaşa məsuliyyətini gizlətmək üçün Ermənistan xalqların öz müqəddəratını təyin etmək kimi hüququ prinsipindən sui-istifadə edir və onu təhrif edir.

Əslində, bunun Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, 1975-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Konfransının (sonra ATƏT) Yekun Aktı (Helsinki Yekun Aktı) və digər beynəlxalq sənədlərlə nəzərdə tutulan xalqların öz müqəddəratını təyin etmək hüququ ilə heç bir əlaqəsi yoxdur. Bundan əlavə, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə qarşı təhdid və ya gücdən istifadəni qadağan edən məcburi normalar (jus cogens) daxil olmaqla, beynəlxalq hüquq normalarının kobud pozulması ilə müşayiət olunan hallara münasibətdə öz müqəddəratını təyinetmə prinsipinin tətbiq olunması iddialarının əsası yoxdur.

XİN-in mətbuat xidmətinin rəhbəri qeyd edib ki, MDB-nin yaranmasına dair 21 dekabr 1991-ci il tarixli Alma-Ata bəyanatına əsasən Ermənistan Azərbaycan və digər keçmiş SSRİ respublikalarının ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını tanımağa və hörmət etməyə dair öhdəlik qəbul edib. Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olması BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı müvafiq qətnamələrində də təsdiqlənib və bundan sonra bu mövqe müxtəlif beynəlxalq səviyyələrdə dəfələrlə bəyan edilib. Qeyd etmək vacibdir ki, Dağlıq Qarabağ ermənilərinin birtərəfli olaraq "müstəqillik" elan etməsindən sonra BMT Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu tanıyan və Azərbaycanın beynəlxalq sərhədlərinin toxunulmazlığını təsbit edən və ərazi əldə etmək üçün gücdən istifadənin yolverilməz olduğunu vurğulayan Təhlükəsizlik Şurasının qətnamələri qəbul edilib. Həmçinin Təhlükəsizlik Şurasının qətnamələrində Ermənistan qoşunlarının dərhal, tam və qeyd-şərtsiz Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması tələb olunub. Ermənistan xarici işlər naziri ölkəsinin Azərbaycana qarşı ərazi iddiaları və hərbi gücdən istifadəsinə bəraət qazandırmaq üçün beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı institutlarının sənədlərini təhrif etməkdən çəkinmir. SSRİ-nin dağılması ilə əlaqədar 10 dekabr 1991-ci il tarixli bəyanatında Avropa İttifaqı Helsinki Yekun Aktına hörmət edilməsinin vacibliyini vurğulayaraq qeyd edib: "Bu müddəalara əsasən Avropadakı bütün dövlətlərin sərhədləri toxunulmazdır və yalnız sülh yolu və ya razılıq əsasında dəyişdirilə bilər". Bundan sonra Avropa İttifaqı Şurası Şərqi Avropa və keçmiş SSRİ dövlətlərinin tanınmasına dair rəhbər sənədində dövlətlərin sərhədlərinin toxunulmazlığı prinsipini bir daha təsbit edib.

Ermənistan xarici işlər nazirinin istinad etdiyi BMT Nizamnaməsi və Helsinki Yekun Aktında gücdən istifadə olunmaması prinsipi bilavasitə sərhədlərin zorla dəyişdirilməsinin qəbuledilməzliyi ilə bağlıdır və güc yolu ilə ərazi əldə edilməsini qadağan edir. Bu məqsədlə Helsinki Yekun Aktı BMT Nizamnaməsinin 2(4) bəndini genişləndirərək ərazi bütövlüyü prinsipini xüsusi vurğulamaq üçün ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və gücdən istifadə edilməməsini ayrı prinsiplər kimi kodifikasiya edib. Nəticə etibarilə, bunlar Helsinki Yekun Aktında ərazi bütövlüyü fundamental normasından irəli gələn ardıcıl prinsiplər kimi müəyyən olunub. Helsinki Yekun Aktının 8-ci bəndində isə öz müqəddəratını təyinetmə prinsipinin BMT Nizamnaməsi, beynəlxalq hüquq norma və prinsipləri, xüsusilə ərazi bütövlüyünə uyğun şəkildə ifadə edilməsi təsbit edilib.

Hikmət Hacıyev deyib ki, Ermənistan xarici işlər naziri çıxışında intensiv danışıqlara və gərginliyin azaldılması məsələlərinə də toxunur. Gərginliyin əsas səbəbi Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalının davam etdirilməsi və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğudur. Gərginliyin və hərbi risk amilinin aradan qaldırılması üçün Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılması lazımdır.

Ermənistan nəhayət, başa düşməlidir ki, Azərbaycan ərazisinin hərbi işğalı münaqişənin həlli deyil və heç vaxt Ermənistanın arzuladığı siyasi nəticəni verməyəcək. Münaqişənin həlli yalnız və yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyü əsasında mümkündür.

Öz xalqını və beynəlxalq ictimaiyyəti çaşdırmaq əvəzinə Ermənistan Azərbaycan ərazilərinin işğalı, etnik təmizləmə siyasətini dayandırmalı və münaqişənin həlli prosesində beynəlxalq öhdəliklərini yerinə yetirməlidir. Ermənistan bu reallığı nə qədər tez dərk edərsə, bir o qədər də tez regionda davamlı sülh və təhlükəsizlik bərqərar olar.

## Yanvarda Azərbaycana 138 ölkədən 186,2 min turist səfər edib

Yanvar ayı ərzində Azərbaycana dünyanın 138 ölkəsindən 186,2 min və ya ötən ilin eyni ayı ilə müqayisədə 16,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, gələnlərin 30,7 faizi Rusiya Federasiyası, 24,5 faizi Gürcüstan, 13 faizi Türkiyə, 7,2 faizi İran, 4,4 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,2 faizi Ukrayna, 1,7 faizi İraq, 16,2 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər təşkil edib. Gələnlərin 70 faizi kişilər, 30 faizi isə qadınlar olub.



İran istisna olunmaqla, Körfəz ölkələrindən gələnlərin sayında daha çox artım müşahidə olunub. Ötən ilin yanvar ayı ilə müqayisədə ölkəmizə gələn Küveyt vətəndaşlarının sayı 6,4 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2,9 dəfə, Qətər vətəndaşlarının sayı 2,7 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,6 dəfə, Oman vətəndaşlarının sayı 2,1 dəfə, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 1,5 dəfə, İraq vətəndaşlarının sayı 1,5 dəfə artıb. İrandan gələnlərin sayında 5,3 faiz azalma müşahidə edilib. Körfəz ölkələrindən gələnlərin ümumi sayı 35,2 faiz artaraq 32,9 min nəfər olub.

Yanvarda Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 7 faiz azalaraq 5,8 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 6,9 faiz artaraq 67,3 min nəfər olub. Ötən ay ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 62 faizi dəmir yolu və avtomobil, 37,3 faizi hava, 0,7 faizi isə su nəqliyyatından istifadə edib. 2017-ci ilin yanvar ayına nisbətən xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 3 faiz azalaraq 299,3 min nəfər olub. Ölkə vətəndaşlarının 32,6 faizi Gürcüstana, 23,8 faizi İrana, 23,4 faizi Rusiya Federasiyasına, 12,5 faizi Türkiyəyə, 1,9 faizi Ukraynaya, 1,5 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 4,3 faizi isə digər ölkələrə səfər etmiş Azərbaycan Respublikası vətəndaşlarının 78,3 faizi dəmir yolu və avtomobil, 20,8 faizi hava, 0,9 faizi isə su nəqliyyatından istifadə edib.

## Afrində 1829 terrorçu zərərsizləşdirildi



Türkiyə Silahlı Qüvvələrinin Suriyanın Afrin bölgəsində keçirdiyi "Zeytun budağı" əməliyyatı çərçivəsində zərərsizləşdirilən terrorçuların sayı 1829 nəfərə çatıb. SİA-nın Türkiyə mətbuatına istinadən veriyi məlumata görə, son sutkada 49 terrorçu məhv edilib. Qeyd olunur ki, bu müddət ərzində Afrində 93 məntəqə terrorçulardan azad edilib. Xatırladaq ki, yanvarın 20-də Türkiyə Silahlı Qüvvələri Suriyanın Afrin bölgəsində PYD və YPG terrorçularına qarşı əməliyyata başlayıb. "Zeytun budağı" adı altında keçirilən əməliyyatlara Türkiyə Hərbi Hava Qüvvələrinin "F-16" təyyarələri də cəlb olunub.

## Azərbaycana narkotik vasitə keçirməyə çalışan şəxs saxlanılıb



Biləsuvar Gömrük İdarəsinin "Qoşa Təpə" gömrük postunda İrandan Azərbaycana piyada gələn Azərbaycan vətəndaşının üzərində şəxsi yoxlama aparılıb.

Dövlət Gömrük Komitəsindən SİA-ya verilən məlumata görə, yoxlama zamanı onun üzərindən, əynində olan alt paltarından gömrük nəzarətindən gizlədilən, sellofana bükülmüş bir ədəd bağlamada təsiredici maddəsinin miqdarı 8 qram təşkil edən 200 həbdən ibarət "metadon" adlı dərman preparatı, sol ayağındakı corabının içərisindən isə 2 ədəd bükümdə xalis çəkisi 4,839 qram olan narkotik vasitə tiryək aşkar olunaraq götürülüb. Qeyd edək ki, "metadon" adlı həb "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələrin" II Siyahısına daxildir. Faktla bağlı araşdırma aparılır.






# İslamabadda “İnsanlığa qarşı cinayətlər-etnik təmizləmə və soyqırımları” mövzusunda seminar keçirilib

***Azərbaycanının Pakistandakı səfirliyi bu ölkənin Xarici İşlər Nazirliyinin Strateji Tədqiqatlar İnstitutu ilə birgə Xocalı soyqırımının 26-cı və 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününün 100-cü ildönümləri ilə bağlı “İnsanlığa qarşı cinayətlər-etnik təmizləmə və soyqırımları” mövzusunda seminar keçirib.***

AZƏRTAC xəbər verir ki, tədbirdə Pakistan Baş nazirinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri, ehtiyatda olan general-leytenant Nasir Xan Cancuan, Strateji Tədqiqatlar İnstitutunun direktoru, səfir Xalid Mahmud, Kayde Əzəm Universitetinin beynəlxalq əlaqələr fakültəsinin professoru Zafar Caspal, Türkiyə, Özbəkistan və Tacikistanın Pakistandakı səfirləri, yüksək rütbəli diplomatlar, tədqiqatçılar, ictimaiyyət nümayəndələri və jurnalistlər iştirak ediblər.

Əvvəlcə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Xocalı faciəsi ilə bağlı sənədli film nümayiş etdirilib. Foyedə bu faciəni əks etdirən fotostend açılıb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, Azərbaycan həqiqətlərinə dair kitablar, bukletlər və digər əyani materiallar nümayiş etdirilib, iştirakçılara paylanılıb.

Seminarı açan Strateji Tədqiqatlar İnstitutunun direktoru Xalid Mahmud “Böyük Ermənistan” xülyası ilə yaşayan erməni ekstremistlərinin tarixən Azərbaycana qarşı etnik təmizləmə siyasəti yeritdiyini, 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı kütləvi qırğınlar törətdiyini, ölkəmizə səfəri zamanı Quba soyqırımı məzarlığında bu qəddarlığın şahidi olduğunu qeyd edib. O, Ermənistan tərəfindən törədilmiş, tarixin ən qəddar hadisələrindən olan Xocalı soyqırımının artıq bir neçə ölkə tərəfindən tanındığını vurğulayıb.

Kayde Əzəm Universitetinin professoru Zafar Caspal bəşəriyyət əleyhinə cinayətlərə siyasi baxımdan zamanında lazımi qiymət verilmədiyini, ikili standartlar səbəbindən dünyanın aparıcı dövlətlərinin Ermənistan tərəfindən törədilmiş soyqırımlarına, o cümlədən Xocalı soyqırımına ədalətli münasibət göstərilmədiyini təəssüflə diqqətə çatdırıb.

Türkiyənin Pakistandakı səfiri İhsan Mustafa Yurdakul Ermənistanın azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımının türk xalqının qəlbini daim ağrıtdığını, Azərbaycanın ağrı-acısının Türkiyənin də ağrı-acısı olduğunu vurğulayıb. Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsinin zəruriliyini vurğulayan diplomat bununla bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin icrasının vacibliyini vurğulayıb. Bəzi dövlətlərin müsəlmanlara, xüsusilə də türklərə qarşı ayrı-seçkiliyə yol verdiyini bildirən səfir Ermənistanın 1915-ci il hadisələrinə dair əsassız iddia ilə çıxış etdiyini söyləyib, bu ölkənin türklərə qarşı etnik təmizləmə siyasətindən əl çəkməli olduğunu vurğulayıb.

Son 100 ildə “Böyük Ermənistan” dövlətinin yaradılması xülyaları ilə yaşayan erməni millətçiləri tərəfindən azərbaycanlılara, ümumilikdə, türklərə qarşı törədilən terrorçuluq və etnik təmizləmə siyasəti haqqında məlumat verən Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə ermənilərin 1905-1907-ci və 1918-1920-ci illərdə azərbaycanlılara qarşı genişmiqyaslı cinayətlər törətdiyini, yalnız Azərbaycanda deyil, Türkiyə, İran və bir sıra digər ölkələrdə də qətliamlar həyata keçirdiklərini deyib.

2010-2016-cı illərdə Təbrizdə Azərbaycanın baş konsulu işlədiyi vaxtlarda ermənilərin törətdiyi qırğınların hələ də Təbriz, Urmiya, Xoy və Səlmas əhalisinin yaddaşında qalmasının bilavasitə şahidi olduğunu ifadə edən səfir ermənilərin sistemli şəkildə azərbaycanlılara qarşı soyqırımı siyasətini reallaşdırmağa çalışdığını, 1992-ci ildə Xocalını yerlə-yeksan etdiyini və qədim Azərbaycan tarixini əks etdirən abidələri, muzeyləri və məscidləri tamamilə dağıtdığını qeyd edib. Ə.Əlizadə ümummilli lider Heydər Əliyevin “Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır və ən qanlı səhifəsidir” fikrini sitat gətirib.

Diplomat Xocalı soyqırımını tanıyan ölkələrin sayının ilbəil artdığını bildirərək, 2012-ci ildə Pakistan Senatının xarici əlaqələr komitəsinin və 2017-ci ildə Pakistan Milli Assambleyasının xarici işlər komitəsinin Xocalı soyqırımını tanıması və Ermənistanın Azərbaycan torpaqlarının işğalını sərt şəkildə qınamasına görə Pakistan xalqına və dövlətinə minnətdarlığını çatdırıb. Səfir beynəlxalq hüquqa və BMT-nin qətnamələrinə əsaslanaraq, dünya birliyini təcavüzkarın qarşısının almağa və soyqırımı törədənlərə qarşı praktik addımlar atmağa çağırıb.

Xüsusi qəddarlıqla törədilən Xocalı soyqırımının tarixin ən ağrılı cinayətlərindən olduğunu və Pakistanın hər zaman Azərbaycanın dərdinə şərik çıxdığını bildirən Nasir Xan Cancua 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanla Pakistan arasında çox səmimi dostluq və qardaşlıq münasibətlərinin yarandığını və bütün sahələr üzrə inkişaf etdiyini diqqətə çatdırıb. Hərbçi general kimi müxtəlif döyüşlərin şahidi olduğunu, amma Xocalıda silahsız insanlara qarşı edilmiş vəhşiliklərin misli görünmədiyini deyən Baş nazirin müşaviri Pakistanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində daim Azərbaycanı dəstəklədiyini bildirib. Ötən dövr ərzində tərəqqiyə və inkişafa nail olan Azərbaycanın acısının Pakistanın da acısı olduğunu, Kəşmir məsələsində Pakistana verdiyi dəstəyə və Kəşmir üzrə İƏT Təmas Qrupunun üzvü kimi verdiyi töhfələrə görə Azərbaycana təşəkkürünü ifadə edən Nasir Xan Cancua Azərbaycan-Pakistan əlaqələrinin bütün sahələr üzrə daha da inkişaf edəcəyinə əmin olduğunu bildirib.

Seminar Pakistanın televiziyaları və qəzetləri tərəfindən geniş işıqlandırılıb, səfir Əli Əlizadənin müsahibələri televiziyalarda yayımlanıb.

## Mark Herevord: “Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində fəaldır”



Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində çox fəal işlər görür. AZƏRTAC xəbər verir ki, bu fikri mətbuata açıqlamasında UNICEF-in mənzil qərargahının araşdırma və siyasət departamentinin direktor müavini Mark Herevord deyib.

“BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi çox vacib məsələlərdən biridir. Mən çox məmnunam ki, Azərbaycan bu proqrama çox fəal şəkildə qoşulub. Bu, ilk növbədə, Azərbaycanın hərtərəfli inkişafının göstəricisidir”, - deyə o vurğulayıb. Mark Herevord deyib ki, bu gün Azərbaycan çox böyük layihələr gerçəkləşdirir. Məhz buna görə də BMT Azərbaycanın 2017-ci ildəki hesabatını yüksək qiymətləndirib. “Əminəm ki, Azərbaycan bu proqramın öncüllərindən biri olacaq”, - deyə UNICEF rəsmisi qeyd edib.

## Bakı-Rusiya sərhədi avtomobil yolu ödənişli olacaq



Bakı-Rusiya sərhədi arasında tikiləcək yeni avtomobil yolu ödənişli olacaq. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, 2018-ci ildə qarşıya qoyulan əsas vəzifə Bakı-Rusiya sərhədi istiqamətində yeni avtomobil yolunun tikintisidir. Bu avtomagistral yolun 43-cü kilometrliyində yerləşən Tağıyev qəsəbəsindən 208-ci kilometrədək olan hissəni əhatə edir. Dörd cərgəli, birinci dərəcəli geniş yol gələcəkdə ilk ödənişli yol olacaq.

***İndi "beyin mərkəzləri" və siyasi dairələr cari ildə dünyada özünü göstərə biləcək geosiyasi proseslərin proqnozlarını verməyə çalışırlar. Analiz üsulları fərqli olur, alınan nəticələr arasında da uyğunsuzluq ola bilər. Ancaq onların hamısında daha çox dünyanın zərərinə olan proseslərdən bəhs edilir, verilən proqnozlar da bədbinlik yaradır. Belə qənaətə gəlmək olar ki, hamı qlobal miqyasda vəziyyətin riskli, təhlükəli və bəşəriyyət üçün ağır sonuclar verə bilən faktorlarla xarakterizə edilməsi ilə razılaşır. Bəs belə bir durum nədən yaranıb və niyə böyük dövlətlər onu yoluna qoymaq barədə deyil, müharibə haqqında düşünürlər? Açığı, bu suala həmin dairələrdə cavab verməyə həvəsli olanlar yox dərəcəsindədir. Buradan belə təəssürat yaranır ki, ya bu gedişat qəsdən aparılır, ya da dünya düzəninin ciddi islahatlara ehtiyacı vardır. Münxen Təhlükəsizlik Konfransının sədri, Almaniyanın xarici işlər nazirinin keçmiş müavini Volfqanq İşingerin hazırladığı ənənəvi illik məruzə bu məqamlar prizmasından maraqlı görünür.***




# 2018-Cİ İLİN RİSKLƏRİ:
# İşingerin analizi və proqnozları

## Dünya sisteminin təhlükələri: müharibə qaynaqları

Münxen Təhlükəsizlik Konfransı uzun illərdir ki, dünya miqyasında ciddi qəbul edilən tədbirlər sırasındadır. Orada müxtəlif ölkələrdən dövlət başçıları, yüksək vəzifəli şəxslər, nüfuzlu iş adamları, tanınmış strateqlər və analitiklər iştirak edirlər. KİV isə kifayət qədər fəallıq göstərir. Bu il fevralın 15-18-də keçirilən tədbirə 20-dən çox dövlət rəhbəri, bir sıra hökumət başçıları, keçmiş siyasətçilər, mütəxəssislər təşrif buyurublar. Ümumiyyətlə isə konfransda 600 nümayəndə iştirak edib.

Ənənəvi olaraq tədbir öncəsi Münxen Konfransının sədri Volfqanq İşinger illik məruzə hazırlayıb. Onun adı da maraqlıdır: "Uçurumun kənarına qədər və geriyə?" (bax: Munich Security Report 2018. To the Brink - and Back? / securityconference.de). Təcrübəli siyasətçi və diplomat məruzəni təsadüfən belə adlandırmayıb. Onun gətirdiyi arqumentlər üzərində ciddi düşünmək gərəkdir.

Məruzədə bütövlükdə dünya sisteminin bir sıra təhlükəli faktorlara məruz qaldığı barədə yazılıb. Özü də bu, dünyanın demək olar ki, bütün regionlarını əhatə edir. Uzaq Şərq, Şimali Amerika, Avropa, Asiya, Yaxın Şərq, Afrika ilə bağlı V.İşinger konkret faktlar gətirərək həssas məqamlara diqqət çəkir. Bu regionların hər birində özünəməxsus məzmunda ziddiyyətlər var. Lakin onların hamısını birləşdirən ümumi cəhət qlobal miqyasda dünya nizamını pozmaq potensialının olmasıdır. Situasiyanın təhlükəli aspekti də məhz bundan ibarətdir.

Məsələ həm də təhlükələrin potensial səviyyədə mövcudluğu ilə bağlı deyil. Artıq dünyanın böyük dövlətləri aktiv addımlar atırlar. V.İşinger bu keyfiyyətdə ABŞ, Rusiya, Türkiyə, İran, Şimali Koreya və Səudiyyə Ərəbistanını vurğulayır (bax: əvvəlki mənbəyə). Ayrıca NATO-nun adını çəkir. Yəni Şimali Atlantika Alyansını dünya üçün təhlükə yarada bilən bir ixtilafın, Rusiya ilə münasibətlərin tərəfi olaraq göstərir. Bu da hərbi aspektdə kifayət qədər təhlükəli bir özəlliyi ortaya qoyur.

V.İşingerin yazdıqlarından görünür ki, qlobal miqyasda hərbi toqquşmaların başlıca qaynaqları Şimali Koreya və ABŞ arasındakı münaqişə, Şərqi Ukraynadakı silahlı toqquşmalar, Suriyada ABŞ, Rusiya, İran və Türkiyə arasındakı gərginlikdir. Sonuncu daha fərqli ziddiyyətlər çələnginə bölünür. Belə ki, iki NATO ölkəsi - Amerika ilə Türkiyə müharibə həddinə gəliblər. ABŞ-Rusiya gərginliyi çoxdan məlumdur. İranla Amerika arasındakı ziddiyyətlər də sirr deyil. Bunların fonunda Türkiyə-Rusiya-İran əməkdaşlığının Suriyaya nə verə biləcəyi haqqında da konkret fikir bildirilmir. Çünki Suriyada bu dövlətlərin maraqları arasında ziddiyyətlər də vardır. Onlar hələlik əsas olaraq İdlib, Afrin və Münbiç bölgələrində daha qabarıq ifadə olunur.

Afrin əməliyyatına Rusiya sözdə etiraz etməsə də, İdlibdə Ankaranın əl-qolunu bağlamağa çalışır, Münbiç məsələsində isə ABŞ-la Türkiyənin mövqeləri xeyli fərqlidir. Son məlumatlara görə, Vaşinqton PYD/YPG-ni silahlandırmağa davam etməkdə qərarlıdır.

## Riskli ssenarilər: NATO-da ixtilaf, Rusiya və radikal qruplar...

Bütün bunlara görə, Volfqanq İşinger məruzədə vurğuladığı fikirləri davam etdirərək jurnalistlərə verdiyi müsahibəsində Suriyada bir dünya müharibəsinin meydana gələ biləcəyi barədə danışıb. O cümlədən NATO-nun iki nüfuzlu üzvü - ABŞ və Türkiyə arasında müharibə yarana bilər.

Bir sıra ekspertlər əvvəllər də NATO daxilində savaşın meydana çıxa biləcəyindən bəhs edirdilər. Lakin V.İşinger səviyyəsində bu riskdən danışılırsa, deməli, situasiya kifayət qədər ciddidir. NATO-da ixtilafın yaranmasından ən çox yararlanan Rusiya və Çin ola bilər. Qəribədir ki, bunu bilə-bilə, Vaşinqtonla Ankara qarşıdurmaya gedirlər. Daha çox Vaşinqton öz hərəkətlərinə yenidən baxmalıdır. Çünki Türkiyənin sərhədi boyu bir radikal məzmunlu qondarma qurumun yaradılması, ona silahın "müttəfiq" Amerika tərəfindən verilməsi nonsens kimi görünür. Hər bir halda artıq bu, açıq görünən ziddiyyətdir və V.İşingerin də narahatlığı başa düşüləndir.

Belə anlaşılır ki, 2018-ci ildə Yaxın Şərqdə daha geniş miqyaslı savaşın yaranması Münxen Konfransının sədri az ehtimal vermir. Bu proses dünya üçün ciddi sonucları ola biləcək iki nəticəyə gətirə bilər. Birincisi, NATO bir təşkilat kimi parçalanmaya məruz qalar. Bu, bütövlükdə Qərbin, xüsusilə də Avropanın təhlükəsizliyi üçün olduqca ciddi təhdid olardı. Paralel olaraq enerji sahəsində nəzərdə tutulmuş təhlükəsizlik sistemi çökə bilər. Bu gedişatdan daha çox Rusiya, Çin və İranın faydalana biləcəyi şübhə doğurmur. Deməli, Moskva, Tehran və Pekinin Afrin məsələsində susması gələcəkdə daha çox geosiyasi-hərbi dividend götürmək niyyəti ilə əlaqəli ola bilər.

Bundan başlıca olaraq strateji aspektdə ABŞ və Aİ-nin zərər görəcəyi gün kimi aydındır. Həmin məqamı V.İşinger lakonik ifadə edib. O yazır ki, Amerika faktiki olaraq illərdir özünün qurduğu geosiyasi və təhlükəsizlik sistemini dağıtmaqdadır.

İkincisi, Yaxın Şərqdən başlanan müharibə sürətlə dünyanın digər bölgələrinə yayıla bilər. Çünki orada iştirak edən dövlətlərin maraq dairəsi demək olar ki, bütün dünyanı əhatə edir. O cümlədən Qafqaz, Mərkəzi Asiya, Afrika və Balkanlar üçün ciddi risklər meydana gəlir. Bu istiqamətlərin hər biri üzrə Yaxın Şərq savaşı "müharibə motivasiyası" rolunu oynaya bilər. O halda Rusiya, ABŞ, Türkiyə, İran, Aİ-nin bəzi üzvləri ilə bərabər Çinin də müharibəyə qoşulması ehtimalından danışmaq olar. Şimali Koreya faktoru bu ssenaridə dünya üçün daha təhlükəli səviyyəyə çata bilər. Dolayısı ilə Cənubi Koreya, Yaponiya, Vyetnam, Tayvan, Hindistan və Uzaq Şərqin digər böyük dövlətləri arasında da silahlı toqquşmaların meydana gəlməsi mümkündür.

Onda ümumi mənzərə necə görünür? V.İşingerin verdiyi proqnozlar və göstərdiyi risklər reallaşsa, 2018-ci ildə dünya böyük bir qarışıqlıq həddinə gəlib çıxa bilər. Burada məruzədə ayrıca yer almış miqrasiya, yoxsulluq və qanunsuz radikal qrupların toqquşmalarını da nəzərə alsaq, onda son dərəcə mürəkkəb bir mənzərə yaranmış olur (bax: əvvəlki mənbəyə).

Belə bir durumda məruzədə Avropanın geosiyasi istiqamətinə düzəliş etməyə meyllənməsi məqamının da ayrıca vurğulanması maraq kəsb edir. V.İşinger göstərir ki, Avropa artıq özünün təhlükəsizlik qayğısına qalmağa başlayıb. O cümlədən Angela Merkel bir il əvvəl bəyan etmişdi ki, Avropa təhlükəsizliyini başqasına (ABŞ nəzərdə tutulur) etibar edə bilməz. Bəs bu halda hansı mənzərə yaranmış olur?

ABŞ-la Avropa arasında təhlükəsizlik məsələsində mövqe fərqliliyi güclənərsə, Qərbin əsrlərdir yaratdığı təhlükəsizlik sistemləri dağılmağa başlayar. Bundan tərəflər çəkinəcəklərmi? Vaşinqton və Brüssel ortaq təhlükəsizlik talelərini birləşdirməkdə davam edəcəklərmi? Bu suallara məruzədə cavab verilmir, indidən onları proqnozlaşdırmaq da çətindir.

Ancaq sözü gedən məruzə də göstərir ki, bütövlükdə dünya BMT-də islahatların sistemli surətdə aparılmasına çalışmalıdır. Getdikcə aydın olur ki, məhdud sayda dövlətin yaratdığı böyük geosiyasi güc dünyanı uçuruma aparır. Ona da ancaq dünyanın özü qarşı dura bilər. Bunun sivil mexanizmi isə BMT-dir! Bəlkə də Volfqanq İşingerin məruzə-proqnozunun ən praqmatik və pozitiv aspekti bundan ibarətdir!

**Newtimes.az**

# Xarici İşlər Nazirliyi və Baş Prokurorluq 1988-ci il Sumqayıt iğtişaşları ilə əlaqədar birgə bəyanat yayıblar

***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Baş Prokurorluq 1988-ci il Sumqayıt iğtişaşları ilə əlaqədar birgə bəyanat yayıblar.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda bildirilir ki, 1980-ci illərin sonlarından başlayaraq Ermənistan Azərbaycana qarşı əsassız və qeyri-qanuni ərazi iddialarını həyata keçirməyə cəhd göstərərək zorakılıq əməllərinə, terrora, etnik zəmində təxribatlara və hərbi gücdən istifadəyə əl atdı. Bu zorakılıq əməlləri Azərbaycanın Dağlıq Qarabağ regionu və Ermənistan ərazisində yaşayan köklü Azərbaycan əhalisinə qarşı hücumlara başlayaraq, 1991-ci ildən Ermənistanın Azərbaycana qarşı açıq hərbi təcavüzü ilə davam etdi, minlərlə azərbaycanlı mülki əhalinin öldürülməsi, bir milyondan artıq azərbaycanlının Ermənistan ərazisində və işğal olunmuş Azərbaycan ərazilərində qanlı etnik təmizləməyə məruz qalması, işğal olunmuş ərazilərin talan edilməsi ilə nəticələndi.

Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalinin kütləvi qovulmasını, Dağlıq Qarabağın Azərbaycandan ayrılmasını, Ermənistanın Azərbaycana qarşı qeyri-qanuni işğalçılıq və anneksiya siyasətini və bu məqsədə nail olmaq üçün zorakı metodlarını "əsaslandırmaq" üçün anti-Azərbaycan kampaniyasını həyata keçirən Ermənistan rəhbərliyi, erməni şovinist ideoloqları və ekstremist təşkilatları 80-ci illərin sonlarında Azərbaycanın müxtəlif regionlarında etnik zəmində qarşıdurma planlaşdırır və həyata keçirirdilər.

1988-ci ilin fevralında Sumqayıtda etnik zəmində törədilən iğtişaş həmin dövrdə bu sıradan olan məqsədyönlü təxribatların kulminasiyası idi.

Bakının 30 kilometrliyində yerləşən, on beşdən artıq müxtəlif millətin yaşadığı Sumqayıt şəhərinin əhalisi 1988-ci ildə 258.000 nəfər təşkil edirdi və bunun təqribən 18.000-ni etnik ermənilər idi. 1988-ci ilin fevralına qədər Sumqayıtda etnik zəmində hər hansı qarşıdurma olmamış və bu gün də




Sumqayıt digər Azərbaycan şəhərləri kimi çoxmillətli və çoxkonfessiyalı xüsusiyyətini saxlamaqdadır.

1988-ci ilin 26 fevralında Sumqayıtın mərkəzi meydanı Azərbaycanın Dağlıq Qarabağ regionunda ermənilər tərəfindən iki gəncin öldürülməsinə etiraz olaraq nümayişçilər tərəfindən tutuldu. Erməni ekstremistləri və təxribatçı agentlər tərəfindən bu etiraz aksiyası iğtişaşa doğru təhrik edildi. İğtişaşı araşdırmaq üçün SSRİ Baş Prokurorluğu tərəfindən cinayət işi başlandı, xüsusilə mühüm işlər üzrə müstəntiq Vladimir Qalkinin rəhbərliyi ilə ölkənin müxtəlif regionlarından cəlb edilmiş 231 nəfər istintaqçı və bir o qədər də əməliyyatçıdan ibarət xüsusi istintaq-əməliyyat qrupu yaradıldı. SSRİ Baş Prokurorluğu tərəfindən aparılan istintaq nəticəsində iğtişaş zamanı 26 erməni, 6 azərbaycanlı olmaqla, 32 nəfərin öldürüldüyü müəyyən edildi, məhkəmənin qərarı ilə 92 nəfər uzunmüddətli həbs cəzasına, 1 nəfər isə ölüm hökmünə məhkum olundu.

Lakin SSRİ Baş Prokurorluğu tərəfindən aparılmış istintaqla iğtişaş iştirakçılarının yalnız bir qismi müəyyən edilib məhkəmənin qərarı ilə cəzalandırıldı, SSRİ-nin siyasi rəhbərliyi və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təzyiqləri nəticəsində istintaq məntiqi sonluğa çatdırılmadı, onun təşkilatçıları və sifarişçiləri müəyyən edilmədi.

Bu cinayətin əsl mahiyyətini açmaq, SSRİ Baş Prokurorluğunun üstündən sükutla keçdiyi məqamları araşdırmaq üçün Azərbaycanın qəti siyasi iradəsinin təzahürü olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi və Azərbaycan Respublikası baş prokurorunun 19 mart 2010-cu il tarixli qərarı ilə həmin kütləvi iğtişaşlarla əlaqədar keçmiş SSRİ Baş Prokurorluğu tərəfindən istintaqı aparılaraq sonradan dayandırılmış 5 cinayət işinin icraatı təzələnərək vahid icraatda birləşdirildi və istintaqın aparılması baş prokurorun birinci müavininin rəhbərliyi ilə prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin müstəntiq və əməliyyatçılarından ibarət yaradılmış istintaq-əməliyyat qrupuna həvalə edildi.

Hazırkı istintaq qrupu tərəfindən toplanmış materialların qiymətləndirilməsi və təhlili təsdiq edir ki, Sumqayıtdakı iğtişaş Azərbaycana qarşı Ermənistan xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən təşkil edilmiş təxribat olub. SSRİ Konstitusiyası əsasında Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının qeyri-qanuniliyi dərk edən erməni ideoloqları və SSRİ rəhbərliyində onları açıq dəstəkləyən şəxslər ermənilərin və azərbaycanlıların birgə yaşamasının qeyri-mümkünlüyünü əsaslandırmaq, azərbaycanlıların artıq tam şəkildə Ermənistan ərazisindən qovulmasını təmin etmək və Azərbaycanı nüfuzdan salmaq üçün bu təxribata əl atmışlar.

Həmin təxribatın törədilməsində SSRİ DTK-nın məqsədi SSRİ-nin əyalətlərində vəziyyəti gərginləşdirərək güclənən mərkəzdənqaçma meyillərini dayandırmaq, sərt repressiya metodlarına əl atmağa bəraət qazandırmaq və güclü mərkəzi Sovet hakimiyyəti olmadan Sovet respublikalarının müstəqil yaşaya bilməyəcəklərini nümayiş etdirmək olub. Sumqayıt hadisələrinə bənzər iğtişaş və təxribatlar DTK tərəfindən Oş (Qırğızıstan), Fərqanə (Özbəkistan), Tbilisi (Gürcüstan), Vilnüs (Litva) və digər ərazilərdə təşkil olunmuşdu.

Hadisələr ərəfəsində və hadisələr baş verən gün Sumqayıt şəhərində və ətrafında SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və ordu birləşmələrinin kifayət qədər canlı qüvvəsi və texnikası olsa da, onlar tərəfindən vəziyyətin nəzarət altına alınması üçün vaxtında qabaqlayıcı tədbirlər görülməyib.

Evlərə basqın və digər zorakılıq hərəkətləri əvvəlcədən hazırlanmış siyahı və xüsusi plan əsasında əslən erməni olan Sumqayıt şəhər sakini, dəfələrlə məhkum olunmuş Eduard Qriqoryanın bilavasitə rəhbərliyi və göstərişləri üzrə həyata keçirilmiş, hücumlara məruz qalan ermənilər isə Dağlıq Qarabağın Azərbaycandan ayrılması məqsədini güdən gizli "Krunk" və "Karabakh" komitələrinə ianə verməkdən imtina edən şəxslər olmuşlar.

İğtişaşlarda E.Qriqoryan ermənilərə qarşı xüsusi qəddarlığı ilə seçilmiş, zorlamaya məruz qoyduğu erməni Məjlumyan bacıları tərəfindən istintaq zamanı qəti olaraq tanınıb. Məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilən E.Qriqoryan SSRİ dağılandan sonra Ermənistanın həbsxanasına köçürülüb və oradan da dərhal müəmmalı şəkildə azadlığa buraxılıb. Hazırda istintaqı aparılan cinayət işi üzrə ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə, qrup halında zorlama və digər ağır cinayətləri törətməkdə təqsirləndirilən, barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarış elan edilmiş E.Qriqoryanın faktiki yaşadığı ünvanın operativ kanallarla müəyyən olunmasına və ictimaiyyətə bu barədə məlumat verilməsinə baxmayaraq, o, Ermənistanın xüsusi xidmət orqanlarının himayəsi altında üçüncü ölkənin ərazisində azadlıqda yaşamaqda davam edir.

Cinayət işinin materialları bir daha göstərir ki, Sumqayıtın azərbaycanlı sakinlərinin fərdi humanizmi və şücaəti olmasaydı, hadisələr planlaşdırılmış təxribat planına uyğun olaraq, daha geniş miqyas alardı. Milliyyətcə erməni olan şahidlərin ifadələrindən göründüyü kimi, onlarla erməni hadisələr vaxtı azərbaycanlı ailələr tərəfindən öz evlərində yerləşdirilməklə xilas edilib.

SSRİ dövründə foto-video çəkilişə xüsusi nəzarət və senzura tətbiq olunmasına baxmayaraq, hadisələrin əvvəlcədən quraşdırılmış vasitələrlə foto-video çəkilişi aparılmış və dərhal SSRİ ərazisindən çıxarılaraq erməni lobbi təşkilatları vasitəsilə anti-Azərbaycan kampaniyasının tərkib hissəsi kimi yayılıb.

Ermənistan və erməni lobbisi dairələri tərəfindən Sumqayıt hadisələri qəsdən Azərbaycana qarşı təbliğat və dezinformasiya məqsədilə istifadə edilsə də, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, aparılmış obyektiv və faktlara söykənən istintaq materialları ilə həmin iğtişaşların məhz erməni millətçilərinin və onların havadarlarının öz məkrli niyyətlərinə nail olmaq məqsədilə təşkil edilərək törədilməsi kifayət qədər və təkzibedilməz faktlarla sübuta yetirilib. Bəyanatda bildirilir ki, hazırda qeyd olunan iğtişaşların bütün sifarişçisi və iştirakçılarının aşkarlanaraq cinayət məsuliyyətinə cəlb olunması, eləcə də onların və havadarlarının ifşa olunması istiqamətində kompleks istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# "Nar" "İlin mobil operatoru" mükafatına layiq görüldü

***"Nar" 21 fevral 2018-ci il tarixində "Navigator Business Awards" tərəfindən "İlin ən yaxşı mobil operatoru" nominasiyasında mükafata layiq görüldü. Təşkilatçılar "Nar"-ın müasir trendlərə uyğun biznes modelini və müştəri yönümlülüyü ilə seçilən fəaliyyətini yüksək qiymətləndirdi. "İlin ən yaxşı mobil operatoru" adına layiq görülməsinin səbəbi kimi "Nar"-ın dünya təcrübəsindən yararlanaraq öz biznes strategiyasını uğurla təkmilləşdirməsi, irihəcmli investisiyalar yatırmaqla müştərilərinin və tərəfdaşlarının tələblərinə uyğun müasir həllər təqdim etməsi göstərilir.***

Mükafatı qəbul edən "Azerfon" MMC-nin ("Nar" ticarət nişanı) baş icraçı direktoru Qunnar Panke öz çıxışında müasir texnologiyalar və davamlı sərmayələr sayəsində "Nar" operatorunun hər bir istifadəçiyə əlverişli qiymətə yüksəkkeyfiyyətli xidmətlər təklif etdiyini vurğulayıb. "Müasir texnologiyaları tətbiq etməklə və davamlı sərmayə yatırmaqla "Nar" sərfəli qiymətə keyfiyyətli xidmətlər təklif edir. Öz biznes strategiyamızı təkmilləşdirməklə şirkətimizin məhsuldarlığını yüksəltdik. Eyni zamanda, hər bir kəsin asanlıqla yararlana biləcəyi sadə təkliflər irəli sürdük. Nəticə etibarilə, "Nar" artıq xalqın seçimi olan bir brendə çevrilməkdədir. Müştərilərin və tərəfdaşlarının düşüncələrinə önəm verən bir şirkət olaraq aldığımız bu mükafat bizi daha böyük nailiyyətlər və davamlı uğurlar əldə etməyə ruhlandırır", - deyə cənab Panke qeyd edib.

Qeyd edək ki, "Nar" ötən il ərzində şəbəkə infrastrukturunu əhəmiyyətli dərəcədə təkmilləşdirməklə 3G və 4G baza stansiyalarının sayını və əhatə dairəsini artırmış, bölgələrdə LTE şəbəkəsini yaradıb, "HD Voice" (High Definition) xidmətini tətbiq edib, Bakı metropolitenini də əhatə edən yüksəksürətli mobil internet şəbəkəsi yaradıb. 2017-ci ilin son rübündə "Nar" şəbəkəsi "P3 Communications" tərəfindən aparılan müstəqil şəbəkə sınaqları nəticəsində ölkədə "mobil zənglər üçün ən yaxşı şəbəkə" olaraq göstərildi.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.



# “Sarkisyanın siyasəti iflasa uğrayıb”

## Azər Həsrət: “Nə o xalqın, nə də o dövlətin Azərbaycanın qarşısına çıxacaq gücü yoxdur“

*- Azər müəllim, Ermənistan cəmiyyətində Sarkisyana qarşı nifrət və mənfi münasibət mövcuddur. Demək olarmı ki, Sarkisyan seçkilərdə uğursuzluğa düçar olacaq və bu halda, Dağlıq Qarabağ münaqişəsinin həllində hansı vəziyyət yarana bilər?*

- Sarkisyanın siyasəti iflasa uğrayıb. Bunu sübut etməyə ehtiyac da yoxdur. Onsuz da, Ermənistanın ən öndə gələn ekspertləri belə açıq şəkildə bunu ifadə edirlər. Ona görə də, bu adamın normal yolla öz təsir imkanlarını qoruması mümkünsüzdür. Məhz bunu anladığından, özünə uyğun bir şəxsi prezident seçdirmək üçün bütün imkanlarını səfərbər edib. Yəqin ki, saxta yolla da olsa, öz istədiyinə nail olacaq. Bu isə, ona səbəb olacaq ki, erməni xalqı daha bir müddət acınacaqlı durumda yaşamalı və zülm çəkməli olacaq. Qarabağ məsələsinə gəlincə, təbii ki, bu məsələdə Ermənistandan hansısa konstruktiv mövqe gözləməyə dəyməz.



Müsahibimiz siyasi şərhçi Azər Həsrətdir

*- Son günlər Dağlıq Qarabağda erməni işğalçılarının atəşkəsi teztez pozması halları baş verir. Bunu birbaşa Sarkisyanın daxili gərginliyi cəbhəyə yönəltmək kimi anormal bir münasibətindən qaynaqlandığını demək olarmı?*

- Əlbəttə, elədir. Bir qayda olaraq, Ermənistanda daxili gərginlik - hakimiyyətdən narazılıq zirvəyə yüksələndə, işğal altındakı torpaqlarımızda silahlar danışmağa başlayır. İşğalçılar atəşkəsi pozub, Azərbaycan Ordusunun cavab atəşi açmasına bəhanə verirlər. Bu isə, ona gətirib çıxarır ki, daha bir neçə günahsız erməni gənci Sarkisyanın hakimiyyət hərisliyinin qurbanı olur.

*- Ermənistanda orduya getməkdən imtina açıq bir müstəviyə keçib. Bu baxımdan, demək olarmı ki, Sarkisyan və onun komandası ordudakı boşluğu doldurmaq üçün xarici muzdlulardan yararlanmağa cəhd etsin?*

- İşğalçı Ermənistan, onsuz da muzdlulardan istifadə edib və gələcəkdə də edəcək. Çünki nə o xalqın, nə də o dövlətin Azərbaycanın qarşısına çıxacaq gücü yoxdur. Üstəlik Ermənistan özü də başqa dövlətlərin əlində oyuncaqdır. Ona görə də, sifariş gələndə, muzdlu da toplayacaqlar, o yana da keçəcəklər. Həm də, artıq son illər erməni gəncləri də açıq şəkildə ordudan yayınırlar, əhali ölkəni tərk edir, erməni anaları da həyəcan təbili çalırlar. Ona görə də, ümid qalır muzdlulara. Amma buna da pul lazımdır ki, o da Ermənistanda yoxdur.

**GÜLYANƏ**





# “Xocalı soyqırımına gedən yol”

***YAP Xaçmaz rayon təşkilatının nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına İdeoloji Mərkəzdə “Xocalı soyqırımına gedən yol” mövzusunda Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev “Xocalı xalqımızın qan yaddaşı” mövzusunda məruzə ilə çıxış edib. Rayon təşkilatı sədri Xocalı soyqırımının bəşəriyyət tarixində ən böyük faciələrdən biri olduğunu bildirib: “Xocalı şəhərində törədilən soyqırımı vəhşiliyin görünməmiş bir təzahürüdür. Həmin tarixdən 26 il ötsə də, kədərli faciənin ildönümündə Xocalı şəhidlərinin əziz xatirəsi bir daha yad edilir və tarixi olaylara yenidən nəzər salınır”.

N.Ağayev Xocalı faciəsinə ilk dəfə hüquqi-siyasi qiymətin yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə Azərbaycana siyasi hakimiyyətə qayıdışından sonra verildiyini söyləyib.

Tədbirdə Heydər Əliyev adına İdeoloji Mərkəzin direktoru Cavad Mehmanov “Xocalı soyqırımına gedən yol”, YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov “Xocalı soyqırımı unudulmur”, Haliyə Osmanova ““Xocalıya ədalət” beynəlxalq kampaniyasının fəaliyyətində Leyla Xanım Əliyevanın rolu” mövzusunda məruzələr ilə çıxış ediblər. Bildirilib ki, Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun, xüsusilə, fondun vitse-prezidenti Leyla Əliyevanın xidmətləri xüsusi olub. Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanan “Xocalıya ədalət!” kampaniyasının uğurla aparılması sayəsində, artıq bir sıra ölkələrdə Xocalı faciəsi soyqırımı aktı kimi tanınır.

Sonda “Xocalı faciəsi şagirdlərin dili ilə” ədəbi-bədii kompozisiyaya baxış keçirilib.

**Nəzakət ƏLƏDDİNQIZI**



İLHAM

## Kim Kardaşyanla Sarkisyanı axtarıram, tapsam...

***Yəqin ki, çoxlarımız vatsapın, feysbukun, odnaklasnikin və instaqramın olmadığı dövrdə Seyid Əzim Şirvaninin “Molla və çoban” mənzum hekayəsini oxumuşuq. Hekayədə diqqət çəkən maqam molla ilə hərdəmxəyal çoban arasında gedən dialoqdur. Deməli, bir məqamda mollaya acıqlı olan çoban:***

- Dəli şeytan deyir ki, bir dəyənək, mollanın başına zola zirək - deyir.

Molla:

- Bu iş xətalıdır, həmişə şeytanın sözünə baxmayasan gərək.

Dediyim kimi, bir qədər hərdəmxəyal xarakterə malik olan çoban bu dəfə fikrini dəyişib deyir:

- Dəli şeytan deyir ki, göstər oyun, sürüdən ayıraraq əlli qoyun, ver mollaya aparsın.

Təbii ki, bizim indiki bozbaş mollalardan olan S.Ə.Şirvaninin qəhrəmanı olan molla çobanın bu eyhamından ağzı sulanıb:

- Hərdən-birdən şeytanın sözünə baxasan gərək,-deyir.

Molla ilə çobanın arasında söz dueli xoş sonluqla bitsə də, bir faktı demək yerinə düşərdi ki, həqiqətən də, cəmiyyətimizdə müxtəlif xarakterli insanlar olduğu kimi, hərdəmxəyal insanlar da var. Elə uzağa getməyək, biri mən özüm. Dəfələrlə fikrimdə, xəyalımda Azərbaycanı heç sevməyən xarici ünsürləri asıb-kəsmişəm. O gün də Azərbaycan saytlarında amerikalı erməni əsilli Kim Kardaşyanın müxtəlif pozalarda şəkillərini gördükdən sonra, bərk əsəbiləşdim. Xəyala dalıb, öz-özümə fikirləşdim ki, kaş, cibimdə pulum-param olaydı, təyyarəyə minib uçaydım birbaşa Vaşinqtona. Küçəbəküçə, evbəev gəzəydim, kafelərə, restoranlara baş vurub K.Kardaşyanı axtaraydım. Azərbaycan saytlarının ulduzuna çevrilən erməni haxçığını tapan kimi, cibimdəki pul-paradan ona göstərib, bir masaya dəvət edəydim. Təbii ki, pula həris olan bu model müftə yeyib-içməkdən imtina etməyib, dəvətimi qəbul edəcək. Mən də ki dişimin dibindən çıxanı, beynimdə və düşüncəmdə yığıb hazır saxladığım hər cür təhqiramiz ifadələri onun sifətinə deyəydim. Sonra da bu üzü üzlər görmüş bu məxluqun sinəsinə bir yüz dollar əskinas atıb “arxamca baxma, baxma” deyib üz tutaydım Sarkisyanın səfər etdiyi hansısa ölkəyə. Açıq etiraf etmək lazımdır ki, Sarkisyanla birbaşa ünsiyyət qurmaq, onunla masa arxasında oturmaq çətin məsələdir. Heç mən də istəmərəm, ancaq hansısa tədbirdə yaxın məsafədən onu gördükdən sonra içimdə qaynayıb-daşan Xocalı şəhidlərinin, Laçın, Şuşa, Ağdam faciələrinin, ümumilikdə, işğal nəticəsində qətlə yetirilən, ev-eşiyindən didərgin düşən insanların qisasını almaq üçün xəyalımda onu milyon dəfə asıb-kəsər, öldürüb-dirildib, yenə asaydım. Onun üzünə baxa-baxa, təbii ki, bunu etməyi bacarardım. “Tfu, sənin sifətinə” deyib, yenə etik qaydaları pozmaq hesabına da olsa, bir loxma tüpürüb, tədbir salonunu tərk edərdim. Söz yox ki, istər Kardaşyanın, istərsə də Sarkisyanın yanına getmək mənim maddi imkanım xaricindədir. Ən azı, ona görə ki, müsəlmanın sözü olmasın, burdan-bura, öz kəndimə gedə bilmirəm, o ki qala, ABŞ-a və ya Almaniyaya, Fransaya gedəm. Ancaq ümidim var, çünki səbəbsiz yerə deyilməyib ki, ümid yalnız sonda ölür.

# BAXCP rəsmisi: “Seçki mühiti üçün hər cür şərait var”

***“Əksər müxalifət qüvvələri seçki hazırlığına başlayıb. Artıq 10 nəfərdən artıq müxalifətin namizədi prezident seçkilərində iştirak edəcəyini bildirib və Mərkəzi Seçki Komissiyasına müraciət edib.***

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) lideri Qüdrət Həsənquliyev üçün də 2 gündür imzaların toplanması kampaniyasına başlamışıq”. Bunu SİA-ya açıqlamasında BAXCP-nin sədr müavini Niyaməddin Orduxanlı deyib.

Onun sözlərinə görə, digər müxalifət nümayəndələri də həmin prosesi aparırlar: “Cəmiyyətdə seçki ab-havası görünməkdədir. İstər ölkə televiziyasında, istərsə də Azərbaycan və xarici mətbuatda aprelin 11-də keçiriləcək növbədənkənar seçkilərlə bağlı məlumatlar yayılır. Həm də 2 milyonlu “facebook” sosial şəbəkəsində də seçki ilə bağlı geniş müzakirələr aparılır. Demək olar ki hər gün seçki fəallığı artır. Radikal müxalifət seçki günü səsverməyə getməyəcəyini bəyan etsə də, bu gün sosial şəbəkədə, mətbuatda ən çox aprelin 11-də seçki olacağını onlar yayır. 25 ildir eyni



siyasəti aparan radikallar cəmiyyətdə çox zəif gücə malikdirlər. Bazaları həddindən artıq zəifdir. Bu səbəbdəndir ki, qorxularından seçkiyə qatılmadılar. Radikal müxalifətin də apardığı kampaniya prezident seçkilərinin seçkiöncəsi hazırlığının artmasına xidmət edir.

Hakim partiya seçkiyə komanda şəklində bir namizədlə, cənab Prezident İlham Əliyevlə qatılıb, hətta heç bir partiya mənsubiyyəti olmayan bitərəf namizədlər də seçkidə iştirak edəcəyini bəyan edib. Dairə Seçki Komissiyalarında seminarlar başlayıb. Düşünürəm ki, aprelin 11-də keçiriləcək seçki sağlam rəqabət şəraitində keçiriləcək və hər bir namizəd özünün platforması, konsepsiyası ilə çıxış edəcək. Normal seçki mühitinin aparılması üçün hər cür şərait var. Seçki prosesi normal şəkildə davam edir”.

# Müxalifətçilər yumurtadan yun qırxmaq niyyətindədir

*Əli Kərimlinin hədəfi Gültəkin Hacıbəylidir və gözünü onun büdcəsinə dikib*

***Hər bir ölkədə müxalifət var və dünya ictimaiyyəti müxalif qüvvələrin fəaliyyətini normal qarşılayır. Yetər ki, bu qüvvələr sivil, qəbul olunmuş və ictimaiyyətin gözləntilərini doğruldan fəaliyyət sərgiləsin. Bir sözlə, şəxsi mənafelər, şəxsi maraqlar deyil, ictimaiyyətin mövqeyini, milli maraqları, dövlətçilik maraqları üzərində köklənmiş alternativ layihələrlə ictimai marağa səbəb olan qurumlar cəmiyyətdə normal qarşılanır və heç bir etiraz doğurmur. Əksinə, ölkəsinin inkişafı, tərəqqisi, nüfuzu və mənafeyi uğrunda mücadilə edən qüvvələr rəğbətlə qarşılandığı üçün onların ictimai dəstəyə ümid etməyə haqqı da çatır.***

Bəzi ölkələrdə ictimaiyyət nümayəndələri, iş adamları və sahibkarlar arasında müxalifətə dəstək verən, maddi ehtiyaclarını qarşılıqsız ödəyən fiziki və hüquqi şəxslər, biznes qurumları, müəssisə və təşkilatlar da var. Məhz bu səbəbdən, yəni daxili imkanlar hesabına fəaliyyət göstərən müxalifət, ölkədaxili məsələlərin həllində maraqlı olur və hər hansı xarici qurumların, təxribat niyyətli qüvvələrin iradəsinə tabe deyillər.

Dağıdıcı müxalifətçilərin maraq dairəsində milli maraqlar, dövlətçilik maraqları, inkişafa və nüfuzun artmasına xidmət etmək yoxdur. Hər bir qurum ayrı-ayrılıqda siyasi dividend, yaxud maddi vəsaitlər axtarışındadır. Anormal fəaliyyətlərinin müqabilində onların maddi ehtiyaclarını dəstəkləyəcək nə fiziki, nə hüquqi şəxs var, nə də hər hansı müəssisə və təşkilat. Yəni Azərbaycan üçün, dövlətimiz üçün, bu xalq üçün, vətəndaşların mənafeyi üçün heç bir strategiya müəyyənləşdirməyənlərə cəmiyyət və onun ayrı-ayrı nümayəndələri tərəfindən dəstək yoxdur və ola da bilməz. İctimaiyyəti maraqlandıran, vətəndaşlara fayda verə bilən fəaliyyətləri olmayanların, təbii ki, daxili resurslar hesabına maliyyələşmələrinə zərrə qədər haqları olmadığı kimi, ümidləri də yoxdur. Bu halda, müxalifət düşərgəsi xaricdən maliyyələşməyə meyilli olur və beləliklə də, əcnəbilərin marionetinə və buyruq quluna çevrilir. Loru dildə desək, pulu kim verirsə, mahnını və musiqini də o, sifariş edir. Müxalifətçilərə də qalır onların çaldıqlarına oynamaq. Onsuz da, bu xalqın, bu dövlətin əleyhinə fəaliyyət göstərən və buna görə də, əcnəbi anti-Azərbaycan qüvvələrin marağına səbəb olan müxalifət düşərgəsinə heç də ölkəmizin mənafeyi və inkişafı üçün ssenarilər hazırlanmır. Əksinə, Azərbaycanın nüfuzuna xələl gətirə biləcək aksiyalar planlaşdırılır, dezinformasiyalar işlənib hazırlanır və müxalifətçilərə də qalır xaincəsinə bu tapşırıqları alacaqları vəsaitlərin müqabilində reallaşdırmaq.





## Sosial bazaları yox, elektorat isə sıfır səviyyəsində olanlara əcnəbilərin investisiya ayıracağı sual altındadır

Hadisələrin gedişi, illərin təcrübəsi, onu deməyə əsas verir ki, xalqın, ictimaiyyətin nifrətini qazanmış radikallar məkrli qüvvələrin ssenarisini və mənfur niyyətlərini reallaşdıra bilmirlər. Ona görə reallaşdıra bilmirlər ki, öz əməlləri və fəaliyyətləri ilə, qeyd etdiyimiz kimi, xalqın, ictimaiyyətin nifrətini qazanıblar və heç bir ictimai dəstəyə malik deyillər. Sosial bazaları yox, elektorat isə sıfır səviyyəsindədir. Ölkənin durumu, siyasi, iqtisadi, sosial vəziyyət, Azərbaycanın dinamik inkişafı, nailiyyətləri, bir sözlə, hər hansı aksiya üçün sosial sifarişin olmaması isə radikalların şansını tamamilə yox etdi. Təbii ki, dağıdıcı müxalifətin bu durumunu, heç bir qüvvəyə, dəstəyə, imkana, şansa belə malik olmadığının fərqində olan əcnəbi ağalarının onlara yönləndirəcəyi investisiyalar da sual altındadır. Bir sözlə, uğursuzluqları, heç bir imkana sahib olmamaları səbəbindən, müxalifət əcnəbi havadarlarından almaq istədiyi pullardan da məhrum olmaq qorxusu altındadır. Elə buna görə də, radikallar üçün hazırda ən aktual olan investisiya hesab olunur ki, onların fəaliyyəti də indi maliyyə mənbəyi axtarışına hesablanıb.

Bəzi müxalifət qurumları və funksionerləri hələ də xarici qüvvələrdən maliyyə cəlb edəcəklərinə inanır və müxtəlif səfərlərlə bunu gerçəkləşdirməyə çalışırlar. Bir qismi Rusiyaya, bir qismi İrana, bəziləri də Avropaya və hətta Qərbə belə səfərlər etməklə maddi vəsaitlər əldə edəcəklərinə ümid edirlər. Amma Əli Kərimlinin, deyəsən, ümidləri tamamilə üzülüb və xaricdən dəstəyə zərrə qədər də gümanı yoxdur. Yəqin ki, tapşırıqlarını və buyruqlarını layiqincə yerinə yetirə bilmədiyini özü yaxşı bilir və dərk edir ki, daha əcnəbilərə əl açmağa nə bir haqqı var, nə də əsası.

## Gültəkin Hacıbəylini müavin təyin etmək niyyəti AXCP sədrinin manipulyasiyasıdır və vəsaitlərini ələ keçirməyə hesablanıb

Mövqeyini tamamilə itirməkdə olan, uzun zamandır müavinsiz qalan Ə.Kərimli Gültəkin Hacıbəylini müavin təyin etmək fikrinə düşüb və bunu da, əslində, özü üçün vəziyyətdən çıxış yolu hesab edir. AXCP-nin üzvü belə olmayan G.Hacıbəylinin partiya qurultaylarında iştirakına verilən icazə, yaxud imtiyaz, hazırda isə müavin postuna təyin edilməsi niyyəti bir çox qaranlıq məqamlara aydınlıq gətirir. Cəbhəçilərin nizamnaməsi, görəsən, partiyaya üzv olmayan birinin qurultayda iştirakına hüquqi əsas verirmi? Məntiqi nöqteyi-nəzərdən, belə bir hüquqi əsas ola bilməz. Olsa da, Hacıbəylinin səs hüququndan söhbət belə gedə bilməz. Belə olan halda, onun qurultayda iştirakının nə mənası var və ona bu imtiyaz niyə, həm də hansı məqsədlə verilib? Bütün bunların fonunda indi də Hacıbəylinin müavin təyin edilmək niyyəti Kərimlinin daha bir oyun planlaşdırdığından xəbər verir.

Azadlıqdan məhrum edildikdən sonra nə Fuad Qəhrəmanlı, nə də Gözəl Bayramlı haqda bir kəlmə də fikir bildirməyən Kərimliyə qəflətən nə səbəbə müavin lazım oldu və müavin postuna nəyə görə partiya üzvü olmayan G.Hacıbəyli layiqli hesab olundu? Hansı kriteriyalara görə Hacıbəyli bu posta, özü də rəqibi olmadan layiq bilindi və belə bir niyyətin arxasında hansı əsaslandırma dura bilər? Xeyli vaxtdır müavin haqqında düşünməyən, belə istəməyən partiya sədri birdən-birə müavin barədə düşündü və bu qədər partiyadaşları ola-ola, partiya üzvü olmayan G.Hacıbəylinin müavini olmasını istədi. Əvvəla, müavin lazım idisə, bu vəzifəyə təyinatı çoxdan verə bilərdi və həm də partiya üzvü olan birini layiq bilərdi. Görünür, müavin adı altında Kərimli növbəti manipulyasiya qərarına gəlib və Hacıbəyli bu vəziyyətdə istifadə olunan qismində iştirak edəcək. Müavinlərinin siyasi səhnədən uzaqlaşmasına münasibət belə bildirməyən Kərimlinin Hacıbəyliyə simpatiyası barədə düşünmək sadəlövhlük olardı. Yalnız mənfəət haqda düşünmək Kərimliyə məxsus xarakterik xüsusiyyətdir və bu baxımdan, onun Hacıbəyliyə yaxınlaşmaq niyyətini yalnız maraqlar prizmasından təhlil etmək düzgün olar. Görünür, deputat olduğu dövrdə vəzifə səlahiyyətlərindən qanunsuz istifadə edərək, müəyyən qədər mal-mülk toplamış G.Hacıbəyli bu cəhətdən də, Kərimlinin diqqətini cəlb edib və indi də məqsəd Hacıbəylinin vəsaitlərindən istifadə etmək və mümkün qədər çox mənimsəməkdir.

G.Hacıbəyli AXCP sədrinin tələsinə düşəcək, ya düşməyəcək? Bax, bunu zaman göstərəcək. Amma bütün bu sadalananlar Kərimlinin maliyyə vəziyyətinin, beləliklə də durumunun heç də yaxşı olmadığından, daha doğrusu, acınacaqlı olduğundan xəbər verir. Hətta partiya sədrinin maliyyə mənbələrinə olan ümidləri o dərəcə itib ki, öz ətrafındakıların büdcəsinə belə göz dikməyə başlayıb və az qala, yumurtadan yun qırxmaq niyyətindədir.

**İnam HACIYEV**



**Təhmasib Novruzov**

# Müxalifətin söz bazarı

***Atalarımızın gözəl deyimi var: pişiyin ağzı ətə çatmayanda, deyir murdardı! Bizim bu sevimli pişiyimizin... üzr istəyirəm, müxalifətimizin də seçkilərə qatılmağa gücü yoxdu, deyir ki, biz bu seçkilərdə iştrak etmirik. Və guya ki, seçkiləri "boykot" edəcəklərmiş.***

Ötən yazıda bizim sevimli müxalifətimizin "boykot" barədə anlayışları olmadığını yazmışdıq. Odur ki, bu barədə yazıb təkrarçılığa yol verməyə lüzum görmürəm. Hər kəsə yaxşı məlumdur ki, bunların seçkidə iştrak etmək və seçkiləri udmaq istəkləri çox güclüdür. Ona görə yox ki, "seçilib" millətə xidmət eləsinlər, ona görə ki, ağaları, yəni türkün sözü, təpəçilər belə istəyir. Təpəçilər demişkən, vallah, o xaricdə oturub bunlara milyonlar verən conların, ivanların təpəçidən, yəni ki, sələmçidən heç bir fərqi yoxdu. İkisi də pul verir, əvəzində, nələrini isə əlindən alır. Fərq ondadır ki, sələmçi verdiyinin faizini, bu olmayanda əlindəki mülkü alır. Bu əmilər isə, adamın milli mənliyini və vicdanını əllərindən alırlar. Nə isə, mövzudan uzaqlaşmayaq. Müxalifətimizin istəyindən danışırdıq axı!... Rəhmətlik Sabirin məşhur bir deyimi də yadıma düşdü: az qalır nəfsim hürə, it kimi dırmaşa ətə! Bu adamlar o qədər hakimiyyət hərisləridir ki, onun üçün hər şeyə gedərlər. Gedirlər də... Məsələn, sosial şəbəkədə (hələ bir utanmaz-utanmaz deyirlər ki, bizdə söz azadlığı yoxdu) Amerikadan tutmuş Rusiyaya qədər vaxtilə vəzifədə olub sonra qovulmuş binəvaların, özünü müxalifət adlandırıb siyasətbazlıqla məşğul olanların video-müraciətləri yayımlanır. Özü də, necə edirlər, bilmirəm. Youtuba daxil olan kimi, bu videolar girir adamın gözünə. Mən də eləmədim tənbəllik, onlardan bir-ikisinə qulaq asmağa qərar verdim. Ona görə yox ki, onlar nəsə bir ağıllı söz deyəcək və mən də eşidib "ağıllanacağam". Ona görə ki, görüm, bu adamların səviyyələri hara kimidir və ən azından, bu xalqı idarə etmək istəyində olan bu adamlar nəyə qadirdilər? Bir neçəsinə qulaq asdım və gah qəşş eləyib güldüm, gah da onların bu millətə aid olub-olmaması düşüncəsinə daldım. İnsan şər, böhtan və yalan deyəndə də, axı gərək qarşısındakını qoyun yerinə qoymaya! Bunlar isə, hesab edirlər ki, (yəqin ağılları ora qədər kəsir) milləti belə-belə "yaba ilə dovğa içmək" nağılına inandıra bilərlər. Eşitdiklərimin hamısından söhbət açsam, bir yox, bir neçə qəzetə sığmaz. Amma məni heyrətə gətirən bir video-çıxışdan danışmasam, olmaz. Əvvəla, çıxış edən (daha doğrusu, əlindəki kağızı üzünə höccələyə-höccələyə oxuyan) kimdir bilinmir. Nə adı var, nə soyadı. Harda yaşayır, hardan qoşulub sosial şəbəkəyə, məlum deyil. Amma ötür ha!.. Bilmədim, bu adam dəlidi, yoxsa camaatı dəli hesab edir. Görün, nə deyir bu binəva. Dediklərinin qısa məzmunu ondan ibarətdir ki, Rusiya Ermənistanla gizli sövdələşmə eləyib, seçkilərdə Azərbaycanda xalq ayağa qalxsın, ölkədə qarışıqlıq düşsün, erməni adı ilə Rusiya Azərbaycana girsin və bu ölkəni işğal eləyib, yenidən Rusiyanın müstəmləkəsi eləsin. Əbdürrəhim bəy Haqverdiyevin təbirincə desək, bu "maral"ımız bütün bunları deyəndən sonra əlindəki vərəqdən höccələyir: "Odur ki, əziz xalqım, ayağa qalxmaq zamanıdır. Bu hakimiyyətdən xilas olmaq (?) zamanıdır... və s...Məncə, bu fikirləri şərh etməyə lüzum yoxdu. Bu adam özü bu çıxışa baxıb heç utanmır görəsən? Yəni ey xalq, ayağa qalx, qarışıqlıq sal, rus-erməni birləşməsi gəlib, sizi işğal eləsin!.. Bu binəva özü öz dediyini anlayır, görəsən, yoxsa? Yazıq, vallah, yazıq sənə və səni ortaya salıb, belə gülünc vəziyyətə salana. Xülasə, deyəsən, müxalifətimizin söz bazarında daha ağlabatan bir deyim qalmayıb, ona görə də gah nala, gah da mıxa vurmaqla Qərbdəki ağaların razı salmağa çalışır. Yoxsa bu kimi çıxışları ilə hansı səviyyədə olduqlarını belə çılpaqlığı ilə göstərməkdən, az da olsa, çəkinərdilər.

# Əli Orucov: "AXCP ilə Müsavat bir-birinə potensial rəqib kimi baxırlar"

*Müsahibimiz AMİP funksioneri Əli Orucovdur*



***- Əli bəy, prezident seçkilərinə rəsmi start verildikdən sonra müxalifət daxilində bir çaxnaşma, həm də fəallıq müşahidə edilməyə başlayıb. Sizcə, bu fəallığın daha çox hansısa bir xarici qüvvənin diqqətini özünə cəlb etməyə hesablandığını demək olarmı?***

- Seçki dönəmlərində ölkədə siyasi fəallığın artması normaldır. Amma müxalifət düşərgəsi partiya və qurumlarının bir çoxunun seçkilərdən imtina etmələri təəssüf doğurur. Əgər hansısa xarici qüvvə amili olacaqsa, onda narahatlığa dəyər. Müşahidələrimə görə təhlükəli fəallıq, hələ ki, sezilmir.

***- Son günlər müxalifət düşərgəsini təmsil edən partiya sədrləri, o cümlədən, İqbal Ağazadə, Əli Əliyev, Sərdar Cəlaloğlu, Cəmil Həsənli İrana və Avropaya səfərlər edirlər. Bunu nə ilə əlaqələndirmək olar?***

- Cəmil Həsənlinin və digər müxalifət liderlərinin xarici ölkələrə nə üçün və hansı məqsədlə getmələrini bilmirəm. Amma AMİP-in nümayəndə heyəti 18 fevraldan İspaniyanın paytaxtı Madrid şəhərində keçirilən Beynəlxalq Demokratiya İttifaqının Qurultayında iştirak edir və hazırda da səfərlərini davam etdirirlər. Qurultay çərçivəsində AMİP Ermənisatnın hakim partiyası olan Ermənistan Respublikaçılar Partiyasının bu nüfuzlu quruma üzvlüyünə namizədliyinə mane olub.

***- Müxalifət xaricdən verilən təlimata və göstərişə əsasən, seçkilərin ab-havasına kölgə salmaq üçün hansısa pozuculuq aktları və təxribatlar törədə bilərmi?***

- Müxalifət rəngarəng və spesifik olduğundan və bu sual ümumi xarakter daşıdığından, kimin haradan hansı təlimatı aldığını söyləmək mümkün deyil. Eyni zamanda, bu barədə məndə hər hansı məlumat yoxdur. Yaxşı olardı ki, belə məsələlərlə xüsusi xidmət orqanları məşğul olsun və müvafiq tədbirlər görsünlər. Seçkilərin keçirilməsi zamanı hansısa təxribata gəlincə isə, buna müxalifət istəsə belə, nail ola bilməz. Çünki həmin imkanlar müxalif partiyalarında yoxdur. Seçkilər keçiriləcək.

***- A.Hacılı Ə.Kərimliyə birgə aksiyaların keçirilməsi xahişi ilə müraciət edib. Sizcə, "Milli Şura" ilə Müsavat arasında gərgin qarşıdurmaların olduğu bir məqamda Ə.Kərimli A.Hacılının xahiş və müraciətinə müsbət münasibət göstərəcəkmi?***

- Mən güman etmirəm ki, Müsavat partiyası ilə AXCP arasında, yaxın müddət ərzində, hansısa razılaşma olsun. AXCP ilə Müsavatın birgə kütləvi aksiyalar keçirəcəkləri də inandırıcı deyil. Hər iki partiya bir-birilərinə tərəfdaş kimi yox, potensial rəqib kimi, bəzi anlarda isə, hətta düşmən kimi baxırlar. Hər iki partiya və sədr də iddialı və təkəbbürlüdürlər. Partiyaların alt qatlarında da qarşılıqlı antipatiya hakimdir. Müsavat partiyasını və AXCP-ni yaxınlaşdıracaq ortaq maraqlar hələ ki, mövcud deyil.

**GÜLYANƏ**

# Mustafa Hacıbəyli niyə xofa düşdü?

*Yaxud Eldar Namazovun doğru qərarı kimləri qorxuya salıb?*

***Vaxtilə "Milli Şura"nın təsisçilərindən biri olan, dağıdıcı müxalifət düşərgəsində müxtəlif siyasi hərəkat və bloklar yaradan Eldar Namazovun, bir neçə gün öncə, etdiyi bəlli və doğru seçimi adıçəkilən düşərgəyə soyuq duş effekti verdi.***

Yəni onun hakim partiyanın namizədinə dəstək verəcəyi ilə bağlı verdiyi qərarı elə "Milli Şura"nı da, orada təmsil olunan və olunmayan şəxsləri də xofa saldı. Hətta daha çox xoflananlardan biri - Müsavat partiyasının başqanı A.Hacılının





xud Müsavat "Milli Şura"nı tərk edərkən niyə demədin və indi, yəni E.Namazov siyasi baxışına yenidən nəzər saldıqdan sonra "xoda" düşdün? Üstəlik, nə səbəbə həmin vaxt E.Namazovun tərəfində dayanan ALP-nin sədr əvəzi Əvəz Temirxanı, cəbhəçilərdən Asəf Quliyevi, Rafiq Daşdəmirlini (hazırda onlar da AXCP sıralarını tərk ediblər-R.N.) və Gözəl Bayramlını, necə deyərlər, "baqaja" qoydun? Bu da azmış kimi, Rüstəm İbrahimbəyovun deyil, Cəmil Həsənlinin imzalarının yarıdan çoxunun, məhz müsavatçılar tərəfindən toplandığını iddia etdin. Beləliklə, M.Hacıbəyli demək istəyir ki,

qardaşı, bu siyasi təşkilatın məclis üzvü Mustafa Hacıbəyli dözməyib, partiyasına məxsus saytda yazı da yazdı. Misal üçün, həmin yazısında qeyd edib ki, 2013-cü il seçkilərində Rüstəm İbrahimbəyovun namizədliyi ətrafında spekulyasiyalar gedən vaxt o, "Milli Şura"nın seçki qərargahının rəhbəri təyin edilmişdi, hətta bu qurumun seçki qərargahının ACP qərargahında keçirilən iclasında onunla, yəni Eldar Namazovla ciddi mübahisəsi də olubmuş M.Hacıbəylinin...

Həmin mübahisənin tam nöqtə-vergülünə varmayaraq, sadəcə, qeyd etmək yerinə düşərdi ki, həmin vaxt aralarında olan davadalaş imza toplamaq üstündəymiş. Daha dəqiqi, E.Namazovun qərargah rəhbəri olduğuna görə, müsavatçılara göstəriş verməsi M.Hacıbəylinin "çestinə" dəyibmiş. O da durub-durub, məhz indi - 2018-ci il seçkiləri ərəfəsində həmin məsələni xatırlayıb. Bu zaman sual olunur: M.Hacıbəyli, nəyə görə bu məsələni elə o vaxtlar açıqlamadın, ya-

guya o, E.Namazova qarşı hələ o vaxtdan mübarizə aparıbmış və s. Üstəlik, AXCP-nin də bostanına daş atır ki, 2013-cü ildə "Milli Şura"da müsavatçılardan savayı, hər kəs E.Namazovun mövqeyinə dəstək verdi və indi də E.Namazov onların hamısından imtina edib.

Əslində, M.Hacıbəylinin bu qədər xoflanması kimsədə təəccüb doğurmamalıdır. Çox yəqin ki, E.Namazovun, az-çox siyasəti anlayan bir adam kimi, radikal müxalifətdən imtina etməsi düşərgə üçün itki sayıla bilər. Lakin bu amil onlarda bir qorxu-hürkü və xof da yaradıb. Nə etmək olar?.. Onsuz da zaman-zaman radikal düşərgədən baş verən qopmalar son anda tərk edən tərəflərin reallığa və gerçəkliyə doğru qiymət verməsi ilə nəticəsini tapır. E.Namazov isə, onlardan fərqli olaraq, ağıllı adamdır ki, vaxtında öz mövqeyini ortaya qoymuş oldu.

**Rövşən NURƏDDİNOĞLU**

# Orduxan Teymurxan ermənilərə qahmar çıxdı: "Onlar vandal deyillər"

***Avropada "siyasi mühacir" adı altında dövlətçilik və milli maraqlarımıza qarşı fəaliyyət göstərən blogger Orduxan Teymurxan (Bəbirov) növbəti dəfə onu pulla satın almış erməni lobbisinə qahmar çıxıb.***

Belə ki, digər xəyanətkar "məsləkdaşları" ilə birgə toplantı keçirən və "şərəfsiz" sözünü özünə təhqir hesab etmədiyini deyən və tez-tez "demokratik dəyərlərdən", "ədalətdən" dəm vuran O.Teymurxan bu dəfə daha izafi xəyanətkarlığa yol verərək, iddia edib ki, tarixi Qərbi Azərbaycan torpaqlarında və işğal edilmiş Dağlıq Qarabağ ərazilərində ermənilər tərəfindən dağıdılan azərbaycanlı məzarlıqları heç də onların vandallıqları sayəsində məhv edilməyib və s. Onun ucuz təfəkkürünə görə, guya ermənilərin otlaq sahəsinə çevrilmiş həmin məzarlıqları donuzlar, keçilər və mal-qara dağıdıb (?!-R.N.).

### Onun Xocalı soyqırımının 26-cı ildönümü ərəfəsində belə bir mənfur iddia ilə çıxış etməsi açıq-aşkar ermənilərə işləyən Vətən xaini olduğunu sübut edir!

Digər tərəfdən, bu, həmin Orduxandır ki, Fransada, Hollandiyada və Almaniyada dəfələrlə erməni lobbisinin pulları hesabına nümayişlər keçirib, Azərbaycanın dövlətçilik maraqlarını ayaq altına alıb və bununla da, daxilindəki iyrənclikləri üzə çıxarıb. Ümumiyyətlə, onun Xocalı soyqırımının 26-cı ildönümü ərəfəsində belə bir mənfur iddia ilə




çıxış etməsi də, kifayət qədər sübut edir ki, o, açıq-aşkar ermənilərə işləyən Vətən xainidir. Əldə edilən videomateriaidan və həmin satqının çıxışından da da, görünür ki, o, hər vəchlə özünə "qardaş", "dayı", "əmi" hesab etdiyi işğalçı erməniləri təmizə çıxarmağa cəhdlər göstərir. Halbuki onun yaxınları, artıq bir neçə dəfə ondan imtina etdiklərini, ailə üzvlüyündən sildiklərini media vasitəsi ilə bəyan ediblər. Görünür, O.Teymurxana doğmalarından daha artıq hesab etdiyi erməni lobbisi və bu lobbinin dəstəklədiyi Avropanın bəzi qaranlıq siyasi dairələri axır zamanlar, xüsusilə, Azərbaycanda keçiriləcək prezident seçkiləri öncəsi daha yaxşı baxırlar.

### Bütün kartlar açılıb və kimin-kim olduğu da sübuta yetirilib!

Halbuki bu gün Avropada yaşayan kifayət qədər Vətən və dövlət sevgisi olan soydaşlarımız var ki, onlar Xocalı soyqırımı ərəfəsində Azərbaycan dövlətinin dəstəyi ilə böyük tədbirlər keçirirlər, ötən əsrin qanlı cinayəti olan bu soyqırımını dünyaya tanıdırırlar. Sual yaranır - əgər Orduxan bu qədər "vətənpərvərdirsə", niyə gedib Ermənistan səfirliyinin qarşısında Xocalı soyqırımı qurbanlarının fotolarını qaldırmır? Niyə Avropa ictimaiyyətinə erməni vandalizminin mahiyyətini, Azərbaycanın haqq səsini çatdırmır? Bunun yerinə "ermənilər bilərəkdən vandalizm formasında məzarları dağıtmayıblar", yaxud "ermənilər bilərəkdən qəbirlərə, məscidlərə ziyan vurmayıblar" tipli sərsəm sayıqlamalar səsləndirir.

Göründüyü kimi, mövcud sübut və fakt bu sualların cavabını yetərincə verir və bu gün onun Azərbaycandakı dəstəkçiləri olan Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıyeva, Xədicə İsmayıl, İsa Qəmbər, Arif Hacılı və digər "demokratlar" da, sözü yox ki, onun kimi düşünürlər. Yəni ermənilərin heç də "vandal" olmadıqlarını deyirlər. Artıq bütün kartlar açılıb və kimin-kim olduğu da sübuta yetirilib!

**R.RƏSULOV**

## Cinayət törətməkdə şübhəli bilinən 26 nəfər saxlanılıb

***2018-ci il fevral ayının 21-dən 22-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib. Respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 106 cinayət faktı qeydə alınıb, onların da 21-i "isti izlər"lə açılıb. Əvvəlki dövrlərdə bağlı qalmış cinayətlərdən gün ərzində 11-nin açılması təmin olunub.***

Axtarışda olduğuna görə 26 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında 4 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 2 nəfər ölüb, 4 nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 16, qanunsuz saxlanılan silah-sursatla bağlı 2 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 26 nəfər saxlanılıb.

# Bələdiyyə mülkiyyət hüququ

***Bu gün Azərbaycanda 1730 bələdiyyə fəaliyyət göstərir. Bələdiyyə mülkiyyətinin əsasını bələdiyyə torpaqları təşkil edir. Bələdiyyə mülkiyyəti-bələdiyyəyə mənsub olan bütün növ daşınar və daşınmaz əmlakdan ibarətdir.***

Bələdiyyə mülkiyyətinin tərkibinə :

-yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti,

-bələdiyyənin büdcədənkənar fondları,

-bələdiyyə əmlakı,

- bələdiyyə torpaqları,

-bələdiyyə müəssisələri və təşkilatları,

- bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları,

-dövlət və xüsusi mülkiyyətdə olmayan yollar,

-təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri,

-digər daşınar və daşınmaz əmlak daxildir.

Azərbaycan Respublikasının "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Qanununa müvafiq olaraq, bilavasitə bələdiyyə mülkiyyətində olan torpaqların idarə edilməsi xüsusiyyətlərini nəzərə almaqla mülkiyyətə, istifadəyə və icarəyə ayrılan torpaqların "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında" Əsasnamənin tələblərinə uyğun tənzimlənməsini təmin edir.

İqtisadçı-ekspert Vüqar Bayramov hesab edir ki, bələdiyyələr satdığı torpaqlara sərəncam verə bilmir: "Bu səbəbdən də, bələdiyyələr indiyə kimi sərəncam vermək hüququ olmayan torpaqların satışı ilə məşğul olub. Bunun da nəticəsində, həmin torpaqlarda inşa edilən evlər də qanunsuz tikililər sırasına aid edilib və indiyə kimi bələdiyyələrin torpaq satışı həyata keçirməsi qanunsuz bir fəaliyyət olub. Bələdiyyələrin sərəncamında olan torpaqlara nə üçün sərəncam vermək hüququ yoxdur? Əsas problem onunla bağlıdır ki, Bakının rayonlarında bələdiyyə torpaqları ilə dövlət torpaqları arasında sərhədlər müəyyənləşməyib. Torpaqların sxeminin düzgün çəkilməməsi də belə problemlərin yaranmasına gətirib çıxarır. Digər problem onunla bağlıdır ki, bələdiyyələr formalaşandan sonra onlar özəl mülkiyyətə aid olmayan torpaqların hamısının bu qurumlara aid olduğunu zənn edib. Qanunvericiliyə görə, bələdiyyə torpaqları dövlət torpaqlarından fərqlənir. Bələdiyyə torpaqları Dövlət Torpaq Komitəsinin çəkdiyi sxem əsasında müəyyənləşməlidir. Əsas problem onunla bağlıdır ki, bu istiqamətdə fəaliyyət çox zəifdir. Bələdiyyələr heç də özəl mülkiyyətə aid olmayan torpaqların hamısının sahibi deyil.

Torpaqların, konkret olaraq bölünməməsi, sərhədlərin sxeminin tərtib edilməməsi gələcəkdə problemlərə səbəb olacaq. Hesab edirəm ki, bu təşəbbüs çox normaldır. Bələdiyyə torpaqlarının konkret müəyyənləşməsi gələcəkdə vətəndaşlar üçün də problemə səbəb olmayacaq".

Azərbaycanda bələdiyyə, büdcədənkənar fondlar, bələdiyyə mülkiyyəti, bələdiyyə mülkiyyətində olan torpaqların idarə edilməsi xüsusiyyətlərini nəzərə almaqla mülkiyyətə, bələdiyyə mülkiyyətinin idarəetmə, bələdiyyə müəssisələri və təşkilatlar, bələdiyyə mənzil fondları, bələdiyyə torpaqları, bələdiyyə əmlakı, bələdiyyələrin mülkiyyəti, bələdiyyələrin statusu haqqında Qanun, bələdiyyələrin torpaq satışı, bələdiyyənin büdcədənkənar fondlar, bələdiyyəyə mənsub olan bütün növ daşınar və daşınmaz əmlak, digər daşınar və daşınmaz əmlak, Dövlət Torpaq Komitəsi, dövlət və xüsusi mülkiyyət və icra aparatı.

Mülkiyyət forması kimi bələdiyyə mülkiyyətinin dövlət mülkiyyətindən ayrılması "Azərbaycan Respublikasında mülkiyyət haqqında" Qanunla müəyyən olunmuşdur. Sonralar Azərbaycan Respublikasının yeni Konstitusiyasında (13-cü maddə) mülkiyyət növü kimi bələdiyyə mülkiyyəti təsbit olunmuşdur. Bələdiyyə mülkiyyətinin formalaşmasında yuxarıda göstərilən qanunvericilik aktlarından başqa "Bələdiyyələrin statusu haqqında" 2 iyul 1999-cu il tarixli respublika Qanunu, "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında", "Bələdiyyələrin əraziləri və torpaqları haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" 7 dekabr 1999-cu il respublika qanunları, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", 27 dekabr 2001-ci il respublika Qanunu və s. qanunlar, o cümlədən, Azərbaycan Respublikası Mülki Məcəlləsi mühüm rol oynamışdır. Qanunvericiliyə əsasən, bələdiyyələr, bələdiyyə mülkiyyəti obyektlərini fiziki və hüquqi şəxslərin müvəqqəti və ya daimi istifadəsinə, icarəsinə verə bilər, qanunla müəyyənləşdirilmiş qaydada özgəninkiləşdirə bilər, habelə, bələdiyyə mülkiyyətində olan əmlak barəsində başqa əqdlər bağlaya bilər, özəlləşdirilən və ya istifadəyə verilən obyektlərdən istifadə şərtlərini müqavilə və sazişlərlə müəyyənləşdirə bilərlər. Bələdiyyə mülkiyyətinin özəlləşdirilməsi qaydasını və şərtlərini əhali bilavasitə və ya bələdiyyə müstəqil surətdə müəyyənləşdirir. Bələdiyyə mülkiyyəti obyektlərinin özəlləşdirilməsindən daxil olan vəsaitlər bütünlüklə yerli büdcəyə daxil olur. Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir. Yerli büdcə bələdiyyə büdcəsi olub, dövlət büdcəsinin tərkib hissəsi deyil. Yerli büdcənin gəlirlərinə fiziki şəxslərdən alınan torpaq və əmlak vergiləri; yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi; bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi; bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən küçə reklamlarına görə ödəniş; kurort rüsumu, mehmanxana rüsumu, avtomobillərin dayanacaqları üçün rüsum və qanunla müəyyən edilən digər yerli vergi və ödənişlər; Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar; bələdiyyə əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər, lotereyalardan daxil olan vəsait, habelə, bələdiyyələrin fəaliyyətindən əldə edilən digər gəlirlər; fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları; dövlət əhəmiyyətli tədbirlərin və dövlət orqanlarının qərarları nəticəsində yaranan xərclərin ödənilməsi üçün maliyyə vəsaitləri və s. aid edilir. Bələdiyyə mülkiyyətinin mühüm bir hissəsini bələdiyyə torpaqları təşkil edir. Müvafiq inzibati ərazi daxilində qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət mülkiyyətində saxlanılmış və xüsusi mülkiyyətə verilmiş torpaqlar sıxılmaqla qalan torpaqlar bələdiyyə torpaqlarıdır. İstifadə xüsusiyyətlərinə görə bələdiyyə torpaqları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş ümumi istifadədə olan torpaqlara, hüquqi və fiziki şəxslərin qanuni istifadəsində və icarəsində olan torpaqlara, habelə, ehtiyat fondu torpaqlarına bölünür. Bələdiyyələr haqqında respublika qanunvericiliyinə uyğun olaraq, torpaq münasibətlərinin tənzimlənməsi sahəsində bələdiyyələrin öz inzibati əraziləri daxilində qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyə mülkiyyətində olan torpaqlara sahiblik, onlardan istifadə və onlar barədə sərəncam vermək; onları ümumi istifadəyə, hüquqi və fiziki şəxslərin istifadəsinə, icarəsinə və respublika vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə vermək; bələdiyyə torpaqlarının istifadəçilərindən torpaq vergisini və icarə haqqını almaq; ehtiyac yarandıqda respublikanın torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada onları geri almaq; bələdiyyə torpaqlarının mühafizəsinə və yaxşılaşdırılmasına dair proqramlar hazırlamaq, təsdiq etmək və onları həyata keçirmək; bələdiyyə torpaqlarından səmərəli istifadə olunmasına və onların mühafizəsinə nəzarət etmək və respublika qanunvericiliyi ilə müəyyən edilmiş digər səlahiyyətlərə malikdirlər. Bələdiyyələrin mülkiyyətində, həmçinin, su təsərrüfatı obyektləri də ola bilər. Bələdiyyə torpaqlarında yerləşən dövlət mülkiyyətində olan yerli əhəmiyyətli su təsərrüfatı obyektləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada bələdiyyə mülkiyyətinə verilir. Su təsərrüfatı obyektləri üzərində bələdiyyə mülkiyyəti aşağıdakı şərtlərlə yaradıla bilər: 1) qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət mülkiyyətində olan su təsərrüfatı obyektlərini bələdiyyə mülkiyyətinə verməklə; 2) bələdiyyələr tərəfindən yeni su təsərrüfatı obyektləri yaratmaqla; 3) hüquqi və fiziki şəxslərin mülkiyyətində olan su təsərrüfatı obyektlərini əqdlər əsasında bələdiyyə mülkiyyətinə almaqla; 4) qanunvericilikdə nəzərdə tutulmuş digər şərtlərlə. Bələdiyyə mülkiyyətində olan su təsərrüfatı obyektlərindən, əsasən, əhalinin həyat və sağlamlığını qorumaq və lazımi sanitariya şəraiti yaratmaq, onları içməli su ilə təchiz etmək, təsərrüfat-məişət ehtiyaclarını ödəmək, habelə, kütləvi istirahət (rekreasiya), müalicə, turizm, idman və başqa məqsədlər üçün istifadə edilir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Bələdiyyə qərarları demokratik prinsip əsasında qəbul edilir. Bələdiyyələrin fəaliyyətinin digər təşkilati forması daimi komissiyalar hesab edilir. Konstitusiyada göstərilir ki, bələdiyyə öz fəaliyyətini daimi komissiyalar vasitəsilə həyata keçirir.

Daimi komissiyaların yaradılmasının üç əsas məqsədi vardır:

- birincisi, daimi komissiyalar bələdiyyələrin səlahiyyətinə aid olan məsələlərin qabaqcadan nəzərdən keçirilməsi və hazırlanması üçün yaradılır;

- ikincisi, daimi komissiyalar bələdiyyə qərarlarının həyata keçirilməsinə yardım göstərmək üçün yaradılır;

- üçüncüsü, daimi komissiyalar bələdiyyənin tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət etmək üçün yaradılır.

Bələdiyyəyə baxılmaq və təsdiq edilmək üçün təqdim edilən büdcə, plan, proqram və qərar layihələrini hazırlamaq, bələdiyyə mülkiyyətini idarə etmək və digər məsələlər bələdiyyə icra aparatının səlahiyyətlərini təşkil edir.

Bələdiyyənin icra aparatı ayrı-ayrı idarə, şöbə və digər struktur bölmələrindən ibarət ola bilər. Bu bölmələr yerli əhaliyə xidmət, iqtisadi, ekoloji, sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılır.

Bələdiyyənin iqtisadi əsaslarını bələdiyyə mülkiyyəti təşkil edir. Bələdiyyə mülkiyyətinə isə daxildir:

- yerli büdcə;

- bələdiyyə əmlakı.

Bələdiyyə öz əmlakının mülkiyyətçisidir.

Bələdiyyələr öz fəaliyyətini iclaslar vasitəsilə həyata keçirir.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 23 fevral


## *Daim aspirin qəbul edən insanlarda mədə xərçəngi baş qaldırır...*

Hal hazırda həkimlərin bir çox hissəsi etiraf edir ki, sağlam insan tərəfindən profilaktik məqsədi ilə istənilən dərmanların qəbulu ona xeyirdən çox ziyan gətirə bilər. Belə dərmanlardan biri ... adi aspirindir. 100 il bundan əvvəl Feliks Xoffman tərəfindən sintez olunmuş bu populyar dərman bütün dünyada müxtəlif məqsədlərlə çox geniş istifadə olunur (hərarətsalan, ağrısızlaşdıran və s.).

Uzun illər ərzində belə hesab olunurdu ki, aspirin insanlarda ürək-damar sistemi xəstəliklərinin və infarktın qarşısını alır. Nəticədə həkimlər bu preparatı yaşı 45-dan çox olan bütün insanlara səbəbli-səbəbsiz təyin edirdilər. Bu hal o qədər kütləvi xarakter alıb ki, tam sağlam insanlar hətta həkimlə məsləhətləşmədən özünə aspirin "təyin edirdilər". Lakin son araşdırmalar nəticəsində məlum oldu ki, aspirinin sağlam insanlara faydasından çox ziyanı var. Məsələ burasındadık ki, aspirini daim qəbul edən insanlarda daxili qanaxmaların, mədə xorasının və hətta mədə xərçənginin riski yüksək olur.

İngiltərə və ABŞ mütəxəssisləri geniş əhatəli araşdırmalar nəticəsinə belə qərara gəldilər ki, aspirinin ürək-damar sistemi xəstəliklərinin profilaktikası üçün qəbulu məqsədə uyğun olmayan təcrübədir. Sağlam insanlara aspirinin uzunmüddətli profilaktik qəbulu yalnız zərər verir. Lakin bu sağlam insanlara aiddir. Müəyyən qrup insanlara var ki, bu insanlar aspirini qəbul etməlidir. Bu ürək və təzyiqlə ciddi problemlər olan, keçmişdə infarkt keçirmiş, piylənmədən əziyyət çəkən və s. insanlardır. Bu qrup insanlar üçün aspirinin qəbulu həyati vacibdir ki, aspirin bu insanlarda infarktın inkişafının riskini 25% azaldır. Lakin aspirini xəstəyə mütləq həkim təyin etməlidir, dərmanın dozası mümkün qədər kiçik olmalı və xəstə müstəqil şəkildə bu dozanı artırmamalıdır. Həmçinin xəstə daim həkimin nəzarətində olmalı və öz vəziyyətində istənilən dəyişikliklər hiss etdikdə dərhal həkimə bu haqda məlumat verməlidir. Ümumdünya Səhiyyə Təşkilatı 12 yaşına çatmamış uşaqlara aspirinin verilməsini tövsiyə etmir. Araşdırmalar nəticəsində məlum ldu ki, virus infeksiyaları zamanı aspirinin qəbulu uşaqlarda Rey sindromunun inkişafına səbəb ola bilər. Bu sindromun nəticəsində beyində və qara ciyərdə ciddi pozulmalar inkişaf edir.

## *TƏBRİK EDİRİK!*

***11 yaşın mübarək, ay Məhərrəm balamız,***
***Səni lap çox sevirik, sevinirik hamımız.***
***Vətəninə layiqli ol, ölkənə xidmətdə dur,***
***İgid, ərən oğulsan, sən bizim baş tacımız!***



Məhərrəmi 11 yaşının tamam olması münasibəti ilə babası Rəsul, nənəsi Quşvər, atası Babək, anası Mələk, bacıları Həvva və Aytac, dayısı Ramin, xalaları Günay və Sevil, müəllimləri Pərvanə xanım və sinif yoldaşları ürəkdən təbrik edirlər.

## Elan

"KARDİNAL-SH" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus VÖEN №1000107511 itirildiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəxsi heyəti xidmətin rəisi, general-leytenant Arzu Rəhimova əzizi

**Rəhimov Hüseyn Məmməd oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

"Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev general-leytenant Arzu Rəhimova əzizi

**Rəhimov Hüseyn Məmməd oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

## "Barselona" 2021-ci ilədək mövsüm gəlirlərini 1 milyard avroya yüksəldəcək

"Barselona" futbol klubunun prezidenti Xosep Bartomeu maliyyə göstəricilərinin artmasından bəhs edib. AZƏRTAC xəbər verir ki, X.Bartomeu 2021-ci ilədək mövsüm gəlirlərini 1 milyard avroya yüksəltməyi planlaşdırdıqlarını və bunun klub üçün yaxşı xəbər olduğunu bildirib. Onun sözlərinə görə, bu, futbol biznesinin inkişaf etdiyinin göstəricisi və azarkeşlər üçün müsbət amildir. "Barselona"nın prezidenti əlavə edib ki, bu mövsüm klubun gəlirləri 900 milyon avroya yüksələ bilər ki, bu, əvvəlki göstəricidən 20 faiz çoxdur. Bundan başqa, yaxın vaxtlarda "Barselona"nın infrastrukturunu, o cümlədən "Kamp Nou" stadionunu yeniləməyə imkan verəcək kontraktın imzalanması da gözlənilir.

## "Neftçi" futbol klubunda yeni təyinat olub

"Neftçi" futbol klubunda yeni təyinat olub. Ceyhun Sultanov "Neftçi"nin idman direktoru vəzifəsinə təyin edilib. 1997/1998-ci il mövsümündə "Neftçi"nin şərəfini qorumuş və 23 oyunda 6 qola imza atmış Ceyhun Sultanov "Fərid" (1996-1997-ci il), "Dinamo" (1998-2001-ci il), "Maşinsazi" (Təbriz, 2003-2004-cü il), "Bakı" (2004-2007-ci il), "Xəzər-Lənkəran" (2007-2010-cu il), "Kəpəz" (2010-2012-ci il), "Sumqayıt" (2012-ci il), "Qəbələ" (2013-cü il) klublarında da çıxış edib.

O, Azərbaycan çempionatının və kubokunun qalibidir. U-21 yığmamızın kapitanı olmuş Ceyhun Sultanov 1998-2007-ci illərdə Azərbaycan milli komandasının heyətində 16 oyun keçirib, 1 qol vurub. Otuz səkkiz yaşlı mütəxəssis "Bakı"da seleksiyaçı məşqçi, "Sumqayıt"da baş menecer vəzifələrində çalışıb.

## Pxençxan-2018: Bir ailədə iki rekordçu



Cənubi Koreyanın Pxençxan şəhərində keçirilən XXIII Qış Olimpiya Oyunlarında daha bir rekord qeydə alınıb. Apasport.az saytının məlumatına görə, belaruslu Darya Domraçova qadın biatlonunda ən çox qızıl medal qazanan idmançı adına sahib çıxıb. O, Soçi-2014-də əldə etdiyi üç çempionluğa Pxençxan-2018-də estafet yarışında qazandığı qızılı da qatıb. Bununla da 4 qat olimpiya çempionu olan ilk biatlonçu xanım kimi tarixə düşüb.

Qeyd edək ki, Domraçova Qış Olimpiya Oyunlarında ən çox - 8 qızıl medal qazanan iki idmançıdan birinin, norveçli biatlinçu Ule-Eynar Byorndalenin həyat yoldaşıdı. Bir sözlə, biatlonda həm kişi, həm qadınlar arasında rekordçu eyni ailənin üzvləridi.

## Yeniyetmə stolüstü tennisçilərimiz Latviyada keçiriləcək beynəlxalq turnirdə iştirak edəcəklər



Fevralın 23-25-də Latviyada stolüstü tennis üzrə Riqa gənclər kuboku turniri keçiriləcək. Azərbaycan Stolüstü Tennis Federasiyasından AZƏRTAC-a bildirilib ki, 2006-cı il təvəllüdlü və daha aşağı yaşlı tennisçilər arasında keçiriləcək yarışda Azərbaycanı Hüseyn Eylazov, Rüstəm Hacılı, Adil Əhmədzadə, Arzu Aslanova, Mehriban Dadaşova və Mərziyyə Nurmətova təmsil edəcəklər. Turnirdə məşqçi Qulu Quliyevin rəhbərliyi ilə mübarizə aparacaq yeniyetmə tennisçilərimiz artıq Riqaya yola düşüblər.

## MOİK Avroliqada ilk 1/8 finalçı oldu



Futbol üzrə UEFA Avropa Liqasının ilk səkkizdəbir finalçısı müəyyənləşib. 1/16 final mərhələsinin cavab oyunları çərçivəsində Rusiyanın MOİK klubu doğma meydanda Serbiyanın "Srvena Zvezda" komandasını qəbul edib. Meydan sahibləri ilk hissənin 45-ci dəqiqəsində Alan Dzaqoevin qolu ilə hesabı açıblar. Komandalar fasiləyə bu hesabla yollanıblar.

Matçın ikinci hissəsində qapılara qol vurulmayıb. Görüş MOİK-in 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. Beləliklə, iki oyunun nəticəsinə görə MOİK Avropa Liqasının səkkizdəbir finalına adlayıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**